9 NOYABR DÖVLƏT BAYRAĞI GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 250 (8273) ŞƏNBƏ, 9 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İstiqlalın rəmzi

**Bayraq hər bir dövlətin əsas rəmzlərindən biri və həm də xalqın müqəddəs and yeridir. Ona görə ki, tarixən bayraq xalqların varlığının sübutu, onların dövlət qurmaq bacarıqlarının milli göstəricisi olub. Təsadüfi deyil ki, ən qədim zamanlardan bügünümüzədək özünütəsdiq simvolu olan bayraq dünyanın bütün nöqtələrində qürur və güvənc yeri sayılır. Bununla yanaşı, dövlətin və onun xalqın kimliyinin, tarixən aparmalı olduğu mübarizələrin, keçdiyi inkişaf yollarının, eyni zamanda, təfəkkür və düşüncə tərzinin, daxili dünyasının göründüyü ən şəffaf və dəqiq mənəvi meyar bayraqdır.**

## Vüqarla dalğalanan bayrağımız

Belə bayraqlardan biri bu gün BMT-də, Avropa Şurasında və digər mötəbər beynəlxalq təşkilatlarda dalğalanaraq, bütün dünyaya müstəqil Azərbaycanın varlığını bəyan edir. Ən mötəbər idman yarışlarında qürurla ucalaraq xalqımızı zəfər çalmaq, qalib olmaq əzmini nümayiş etdirir. Beləliklə, azadlığı, suverenliyi, aparılan istiqlal mübarizəsini, milli kimliyi özündə tərənnüm edən üçrəngli Azərbaycan bayrağı bizi dünyada tanıdır. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bayrağımız xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir.

Azərbaycan bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir.

Azərbaycanın Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və sovet hakimiyyəti qurulduqdan sonra bu bayraqdan imtina edilmişdir. 1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra üçrəngli bayrağımız milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir.

## Heydər Əliyev hələ sovet dövründə üçrəngli bayrağımızı ucaltdı

Lakin dövlət müstəqilliyimiz elan olunmazdan xeyli əvvəl, sovet hakimiyyətinin hələ mövcud olduğu dövrdə xalqımızın böyük oğlu Heydər Əliyev Naxçıvanda üçrəngli Azərbaycan bayrağını ucaltmışdı. 1990-cı il iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana və böyük siyasətə qayıdışı Naxçıvandan başlanan milli dirçəliş prosesinin bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə müşayiət olunmağa başlamışdı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyası tariximizdə Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, Azərbaycanı müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar oldu. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisi müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın rəsmən Naxçıvan MR-nın Dövlət bayrağı olması barədə qərar qəbul etdi.

Ardı 2-ci səh.

# Ümumxalq sevgisinin möhtəşəm ifadəsi

### Ağdamda keçirilən “Bayraq yürüşü”ndə minlərlə rayon sakini iştirak etmişdir

Dövlət Bayrağı Günü münasibətilə cəbhə bölgəsində yerləşən Ağdam rayonunda möhtəşəm tədbir keçirilmişdir. Respublika Təhsil, Müdafiə nazirliklərinin Ağdam Rayon İcra Hakimiyyəti ilə birgə keçirdiyi tədbirdə dörd min nəfərdən çox insan iştirak etmişdir.



“Bayraq yürüşü”nün keçirilməsində əsas məqsəd mühüm dövlət atributu olan üçrəngli milli bayrağımıza ümumxalq sevgisinin ifadəsi, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşdırılması, cəbhə bölgəsinin sakinlərində, eyni zamanda ərazidə yerləşən hərbi hissələrin əsgər və zabitlərində qələbəyə inamın artırılması, döyüş ruhunun yüksəldilməsidir.

Ardı 4-cü səh.

# 30 min tondan çox Ağcabədi pambığı hazırdır

### Bu, son deyil, məhsul yığımı davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələri inkişaf etdirmək, onların əvvəlki şöhrətini qaytarmaq barədə tapşırıq və tövsiyələri özünün konkret fəaliyyət proqramına çevirən Ağcabədi kəndlisi son illərin uğur estafetini əzmlə davam etdirir, ölkə pambıqçılarının əmək bəhsində qazandığı qabaqcıllıq mövqeyini inamla qoruyub saxlayır.

Ardı 5-ci səh.



## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Mühüm mərhələ

### Namizədlərin qeydə alınması şərtləri. Qeydə alınmış namizədlərin statusu, onların bərabərliyi və fəaliyyətinin təminatları. Namizədin namizədlik statusundan imtina etməsi

Hazırda respublikamızın ictimai-siyasi həyatının çox mühüm hadisələrindən olan bələdiyyə seçkilərinə hazırlıq hərəkətləri uğurla davam etməkdədir. Seçki qanunvericiliyində nəzərdə tutulmuş seçki subyektləri tərəfindən namizədliyin irəli sürülməsi, təsdiqi və namizədlərin qeydə alınması prosesi gündən-günə genişlənir.

Seçkilərdə iştirak etmək hüququna malik olan və müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər.

Məlumdur ki, passiv seçki hüququna malik olan Azərbaycan Respublikasının vətəndaşları öz təşəbbüsü ilə, seçicilərin təşəbbüs qruplarının təşəbbüsü ilə, siyasi partiyalar və siyası partiyalar bloku tərəfindən bələdiyyə üzvlüyünə namizəd irəli sürülə bilər. İrəli sürülən namizədlik təsdiq olunduqdan sonra namizədin müdafiəsi üçün seçici imzaları qanunvericilikdə nəzərdə tutulan qaydada toplanılır və rəsmiləşdirilir. Bundan sonra seçki prosesinin mühüm mərhələlərindən olan namizədlərin qeydə alınması başlanır.

Ardı 6-cı səh.

## Kambocanın Kralı əlahəzrət Norodom Sihamoniyə

Əlahəzrət!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Kamboca arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2019-cu il*

## Ağcabədi rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağcabədi rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.25.1-ci yarımbəndində göstərilmiş məbləğin 19 430 000 (on doqquz milyon dörd yüz otuz min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 noyabr 2019-cu il*

# Bayrağımız - milli qürur mənbəyimiz

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook" səhifəsində "Bayrağımız - milli qürur mənbəyimiz" adlı status paylaşıb.



AZƏRTAC xəbər verir ki, status Əhməd Cavadın "Azərbaycan bayrağına" şeirindən bir parça ilə başlayır:

*Türküstan yelləri öpüb alnını,*
*Söyləyir dərdini sana, bayrağım!*
*Üçrəngin əksini Quzğun dənizdən*
*Ərməğan yollasın yara bayrağım!*

Statusda deyilir ki, görkəmli istiqlalçı şair Əhməd Cavadın bir zamanlar bu misralarla qürbətdən oxşayıb əzizlədiyi, doğma yarına - Azərbaycanına ərməğan kimi yollamaq istədiyi üçrəngli bayraq bu gün bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının qürur mənbəyinə, milli-mənəvi kimliyinə, millətin siyasi vizit kartına, ölkə vətəndaşlarının qeyrət və dəyanət simvoluna çevrilib...

Hər bir ölkə kimi, Azərbaycanın da tarixi və dövlətçilik ənənələri onun dövlət rəmzlərində və atributlarında öz əksini tapır. Müstəqil dövlət olaraq onun dünyada öz məxsusi dövlət rəmzləri - bayrağı, gerbi, himni mövcuddur. Üçrəngli bayrağımız hazırda bizim əsas dövlətçilik rəmzimiz olaraq xalqın müstəqillik və suverenlik iradəsini, milli azadlıq və istiqlal arzularını özündə əks etdirir və Azərbaycanın müstəqilliyinin simvolu kimi çıxış edir.

Məlum olduğu kimi, üçrəngli dövlət bayrağımız ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə 1918-ci il noyabrın 9-da qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən sonra yeni qurulan hökumət bu bayraqdan imtina etmişdir. İkinci dəfə üçrəngli dövlət bayrağı 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən ilk sessiyasında Məclisin qərarı ilə bərpa olunmuş və muxtar respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. Həmin sessiyada muxtar respublika Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında "üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında" vəsatət qaldırmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və "üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi" haqqında qərar vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucu lideri, Ulu Öndər Heydər Əliyev bayrağımızı və digər dövlət rəmzlərimizi həmişə yüksək tutaraq onları xalqımızın, dövlətimizin müqəddəslik və əbədiliyinin, sarsılmazlıq və yenilməzliyinin simvolu kimi dəyərləndirmişdir. Ümummilli Lider söyləyirdi ki, "biz dövlət rəmzlərimizi - himnimizi, bayrağımızı, gerbimizi özümüz qədər sevməliyik, çünki onlar bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzləridir".

Milli dövlət və istiqlal rəmzlərimizə hədsiz sevgi nümayiş etdirən Prezident İlham Əliyev Ümummilli Liderin siyasi kursuna sadiq qalaraq dövlət suverenliyinin rəmzləri sayılan bayrağımızı, gerbimizi və himnimizi həmişə yüksək tutmuş, onların təbliği ilə bağlı xüsusi tədbirlər həyata keçirmişdir. 2007-ci il noyabrın 17-də Prezidentin sərəncamı ilə Bakı şəhərində Dövlət Bayrağı meydanı təsis edilmiş, 2009-cu il 17 noyabr tarixli fərmanı ilə hər il noyabr ayının 9-u Azərbaycanda Milli Bayraq Günü kimi rəsmi bayram olaraq qeyd olunmağa başlanmışdır. Şəxsən ölkə başçısının və rəhbərlik etdiyi hökumətin dövlət rəmzlərinə, rəsmi atributlara, suverenlik göstəricilərinə bu cür ehtiramla yanaşması, əlbəttə, müvafiq olaraq bütün Azərbaycan cəmiyyətinin, xarici ölkələrdə yaşayan soydaşlarımızın da dövlətçilik simvollarına sevgisini daha da artırmış, hər bir azərbaycanlıda öz dövləti ilə bağlı qürur hissini yüksəltmiş, xalqla dövlət arasındakı vəhdəti daha da gücləndirmişdir. Xüsusən 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı meydanının təntənəli açılış mərasimindəki nitqində Prezident İlham Əliyevin səsləndirdiyi "Bayrağımız bizim qürur mənbəyimizdir, bayrağımız bizim canımızdır və ürəyimizdir. Bu gün Azərbaycanın hər yerində dövlət bayrağı dalğalanır. Azərbaycanın ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız hələ də işğal altında olan torpaqlarda qaldırılacaq. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaq. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq" kimi duyğusal fikirlər hər bir azərbaycanlının və bütün soydaşlarımızın qəlbini riqqətə gətirmişdir.

Dövlət rəmzlərinə, xüsusən də bayrağımıza Azərbaycanda həmişə müqəddəs atribut kimi yanaşılmışdır. 2010-cu ildən başlayaraq Milli Bayraq Gününün ayrıca bayram kimi qeyd edilməsi ölkə başçısının və vətəndaşlarımızın öz dövlətçiliyinə və suverenliyinə, dövlət rəmzlərinə və müstəqillik simvollarına yüksək münasibətinin əyani təzahürüdür. İnsanlarımız Milli Bayraq Gününü millətimizin, xalqımızın azadlıq və istiqlal ideallarının, milli varlığının, bəşər sivilizasiyasında özünəməxsus milli-mənəvi dəyərlərə malik olmasının təcəssümü kimi dəyərləndirir, bayrağımızı ölkəmizin ərazi bütövlüyü və suverenliyinin, dünya azərbaycanlılarının mənəvi birliyinin, doğma vətənlə vahidliyinin simvolu kimi qəbul edirlər.

## Prezident İlham ƏLİYEV: "Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilib"




**Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilib, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı.**

Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir. Beləliklə, siyasi islahatların dərinləşməsi ölkəmizdə iqtisadi islahatlara daha da böyük təkan verir. Çünki sabitliyin mövcud olması ölkəmizə böyük həcmdə xarici sərmayənin gətirilməsinə də gözəl şərait yaradıb. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan dünya miqyasında aparıcı yerlərdədir.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 90-cı kitabında yer alan bu fikirləri dövlət başçısı VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimindəki nitqində söyləyib.

Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin oktyabr-noyabr aylarını əhatə edir.

Çoxcildliyin 90-cı kitabında Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri çərçivəsində İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimində çıxışının mətni, Belarus Respublikasına rəsmi səfəri haqqında materiallar yer alıb. Nəşrdə Azərbaycan Prezidentinin İtaliya, Rusiya, ABŞ, İsveçrə, Mərakeş, Səudiyyə Ərəbistanı və digər dövlətlərin rəsmi nümayəndələrini, habelə VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün paytaxtımıza gəlmiş yüksəkvəzifəli şəxsləri qəbul etməsinə dair informasiyalar da verilib. Dövlət başçısı bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin Lerik, Qax rayonlarına, Şəki, Sumqayıt şəhərlərinə səfərləri zamanı iqtisadi, sosial, mədəni infrastruktur obyektlərinin, eləcə də Ağdam rayonunda Muğam Mərkəzinin açılış mərasimlərində çıxışlarının, İmişlidə "ASAN həyat" Kompleksinin açılışı zamanı robot "Sofiya" ilə söhbətinin mətnləri ilə tanış ola bilər. Söhbət zamanı "ASAN xidmət"i Azərbaycanın milli brendi adlandıran Prezident deyib: "Bu gün Azərbaycanın təkcə təbii ehtiyatlarını və yaxud məhsullarını yox, eyni zamanda intellektual məhsullarını ixrac etməsi bizi fərəhləndirir. Biz artıq belə xidməti yaratmaq istəyən bəzi ölkələrlə də işləyirik. Buna görə də "ASAN"ın təkcə Azərbaycanda yox, bütün dünyada parlaq gələcəyi vardır".

Nəşrdə dövlət başçısının Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyinə həsr olunmuş mərasimin, V Bakı Beynəlxalq Teatr Konfransının, Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçılarına məktubları və digər məktublar toplanıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 90-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# İstiqlalın rəmzi

*Əvvəli 1-ci səh.*

Qərarda həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi. Naxçıvanda Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırdı və ölkəmizdə gedən proseslərə güclü təkan verdi. Prezident İlham Əliyev bu barədə deyib: *"O vaxt hələ Sovet İttifaqının dağılmasına bir ildən çox vaxt var idi. Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir".*

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olunduqdan sonra Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən dövlət bayrağını bərpa etdi.



### Keçmişimizə ehtiramın nümunəsi

Bu gün Azərbaycanın dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində, o cümlədən beynəlxalq təşkilatlarda ucalır, mühüm tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq müstəqilliyimizi və milli birliyimizi təcəssüm etdirir. Azərbaycan Prezidenti İlham Əliyevin respublikamızın dövlət atributlarına, o cümlədən üçrəngli bayrağımıza göstərdiyi böyük ehtiram, bu məqsədlə həyata keçirilən tədbirlər ölkəmizdə milli həmrəyliyin daha da möhkəmlənməsinə, azərbaycançılıq məfkurəsinə və dövlət rəmzlərinin təbliğinə xidmət edən böyük amillərdir.

Bu istiqamətdə atılan ən mühüm addımlardan biri Dövlət Bayrağı Gününün təsis edilməsidir. Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının dövlət bayrağı ilk dəfə rəsmi surətdə 1918-ci il noyabrın 9-da qəbul edilib. Bunu nəzərə alaraq, o cümlədən Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncam imzalamışdır. Bu sərəncamla hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Azərbaycan Respublikasının dövlət bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olduğunu nəzərə alaraq və onun təbliğinin daim diqqət mərkəzində saxlanılmasını təmin etmək məqsədilə Bakı şəhərində, Xəzərin sahilində Dövlət Bayrağı meydanının yaradılması da dövlət atributlarına olan yüksək ehtiramın ən gözəl nümunəsidir.

### Bayrağımız tezliklə Qarabağda dalğalanacaq

Üçrəngli bayrağımız Azərbaycanın müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin, mənəvi dünyasının rəmzidir. Hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir, bunu özünün müqəddəs borcu kimi qəbul edir. Azərbaycan əsgəri də vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən üçrəngli bayrağa and içir.

2016-cı ilin Aprel döyüşlərindən sonra isə Azərbaycan bayrağı Lələtəpədə, Cocuq Mərcanlıda dalğalanmağa başladı. Prezident İlham Əliyev 2016-cı ilin Aprel qələbəsində Azərbaycan Ordusunun xidmətlərini yüksək qiymətləndirərək deyib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir... Biz işğal edilmiş torpaqlara qayıdacağıq. Bu, bizim əsas vəzifəmizdir. Necə ki, keçən il azad edilmiş torpaqlarda bu gün bayrağımız dalğalanır, hələ də işğal altında olan bütün başqa torpaqlarımızda da Azərbaycan bayrağı qaldırılacaqdır".

Bəli, o gün uzaqda deyil. Prezident, Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasət xalqımızı inamla Böyük Qələbəyə aparır. Tezliklə Şuşada, Xankəndidə, Ağdamda və işğal edilmiş bütün ərazilərimizdə Azərbaycan bayrağı yenidən ucalacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Kölgənin düşdüyü hər yer vətəndir...

Sevgili bayrağım!

Ənginliyi andıran mavini, atəş dilimi tək alışıb yanan rəngini, ümidin simvolu zümrüdünü göylərin bağrında dalğalanan görəndə fərəhlənirəm...

Qürurlanıram ay-ulduzun günəşin altında bərq vuranda...

Səmada qartaltək süzəndə, fırtınalı dərya kimi çalxalananda, dəli rüzgar olub coşanda tamaşana durmaq gərəkdir...

Minillərin o tayından adlayıb gələn bayrağım, nə sınaqlara tuş gəldin, cəng meydanlarında döyüşdün, nizələrə taxıldın, amma heç zaman əyilmədin...

Daim uca, Tanrıya yaxın oldun...

Vətənimin simvolusan. Milyonların arzusundan doğulmusan, azadlıq zərrələrindən yoğrulmusan, müqqədəs and yerimizsən...

*Məğrursan, qürurlusan, yolun haqq yoludur...*
*Kölgənin düşdüyü hər yer vətəndir!*

*Üçrəngli bayrağın kölgəsində mən*
*Qaraca torpağı vətən görmüşəm.*
*Zəfər güllərini dövri-qədimdən*
*Bayraq işığında bitən görmüşəm.*
*Bayraq mənliyimdir, bayraq kimliyim,*
*Bayraq - öz yurduma öz hakimliyim.*

### Bayrağımın izi ilə...

Ulu babalarımız həmişə bayrağa sancaq deyiblər, yəni "sanc" mənasında. Qəhrəmanlarımızın döyüşlərdə öz bayraqlarını sancdıqları yer onlar üçün müqəddəs məkana, ana yurda çevrilib.

Azərbaycan bayrağının tarixi çox qədimlərə gedib çıxır və hələ dünyanın bir çox ölkələrində dövlət, millət anlayışının formalaşmadığı bir vaxtda onun qədim dövləti də olub, bayrağı da...

Tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində güclü dövlətlər mövcud olub. Bunların sırasında Azərbaycanın Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi güclü dövlətləri tariximizdə silinməz izlər qoyub. Bu dövlətlərin hər birinin müstəqillik rəmzi olan bayraqları da var idi. Bəzilərinin üzərində qurd başı, ağ, qara qoç, şir, günəş təsvir edilib, bəzilərində yaşıl rəng üstünlük təşkil edib. O cümlədən, Qarabağ, Şəki, Bakı, İrəvan xanlıqlarının da özlərinə məxsus bayraqları olub ki, onlardan bəzilərinin nümunələri bu gün də hifz olunur.

### 9 noyabr 1918-ci il

1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası hökumətin başçısı Fətəli xan Xoyskinin məruzəsi əsasında Azərbaycanın yeni üçrəngli - mavi, qırmızı, yaşıl zolaqlardan ibarət və üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan milli bayrağının təsdiq edilməsi haqqında qərar qəbul edir.

Yeni bayraq ilk dəfə həmin gün Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada, kütləvi şəkildə isə noyabrın 17-də Bakıda dəniz vağzalında ingilis generalı Tomsonun qarşılanma mərasimində qaldırılıb.

Üçrəngli bayrağımızın milli varlıq fəlsəfəsi də özünəməxsusdur.

Milli bayrağımızdakı göy rəng - türkçülüyü, qırmızı rəng - müasirliyi, yaşıl rəng - islam ideologiyasını ifadə edir.

Bütün türk milləti üçün böyük bir ideala və məqsədə çevrilən bu üçlük şüarının müəllifi türk dünyasının böyük mütəfəkkiri olan həmvətənimiz Əli bəy Hüseynzadədir. 1907-ci ilin iyul ayının 10-da Bakıda özünün nəşr etdiyi "Füyuzat" (xeyir, fayda mənasındadır) jurnalındakı bir məqaləsində "Türk hissiyyatlı, islam etiqadlı, firəng qafalı" kimi ilk dəfə təqdim etdiyi bu fikri sonradan böyük mütəfəkkir Ziya Göyalp belə ifadə etmişdi: "Türk qanlı, islam imanlı, Avropa mədəniyyətli".

Maraqlıdır ki, üçrəngli bayrağımızın rənglərinin hansı mənanı və ideyanı ifadə etməsi ilə bağlı dəqiq məlumatlar olsa da, onun üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif versiyalar səsləndirilir.

Məsələn, bəzi fikirlərə əsasən, aypara bir vaxtlar Bizans imperiyasının paytaxtı Konstantinopolun gerbi olub. Türklər 1453-cü ildə həmin şəhəri aldıqdan sonra bu gerb Osmanlı imperiyası tərəfindən islam dininin bir rəmzi kimi qəbul edilib, həmin dində olan başqa xalqlara da keçib və bayraqların üzərindəki aypara türk xalqlarının simvoluna çevrilib. Bununla yanaşı, ay və ulduzun bir yerdə olmasının qədim türklər tərəfindən xoşbəxtlik simvolu kimi dəyərləndirildiyi, qəməri təqvimə işarə olduğu da deyilir.

Səkkizguşəli ulduzun mənasına gəlincə, bu, "Azərbaycan" sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada "Azərbaycan" sözü səkkiz hərflə yazılır. Səkkizguşəli ulduzun əbədiyyət, sonsuzluq, möhtəşəmlik, davamlılıq və davamiyyət rəmzi olduğu fikirləri də söylənilir...

### 1920-ci ildə endirilən bayrağımız 70 ildən sonra Heydər Əliyev tərəfindən dalğalandırılır

1920-ci il mayın 3-də bayrağımız Azərbaycan parlamentinin binası üzərindən endirilir, amma onu qəlblərdən silmək mümkün olmur...

SSRİ imperiyasına qarşı meydanlarda qaldırılan bayrağa ilk hüquqi status isə 1990-cı ildə verildi. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında bu bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıb. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti vəsatətə baxıb və bu bayrağın yenidən Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verib.

2009-cu il noyabrın 17-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncam imzalayıb. Həmin il dekabrın 4-də isə Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib.

2010-cu il sentyabrın 1-də Prezidentin iştirakı ilə Dövlət Bayrağı meydanının - Bakı şəhərinin Bayıl sahəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı olub. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

İndi dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli varlığı təcəssüm etdirir.

İşğaldan azad edilən Lələtəpə yüksəkliyinə sancılaraq, Cocuq Mərcanlının üzərində zəfər nəğməsi oxuyur...

### Məbədlər başına tac olan hilal

Daim ucalarda, Qarabağımızın ən hündür zirvələrində dalğalan, bayrağım!..

Dalğalan Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Zəngilanda, Qubadlıda!..

Dalğalan ki, böyük yaradılışının şahidi olanların, uğrunda canlarından keçənlərinin ruhu şad olsun!..

Hər qıvrılıb açılanda, hər qabarıb çəkiləndə yağının bağrına ox kimi sancıl!..

Dalğalan ki, düşmən əzəmətin qarşısında əzilsin, diz çöksün önündə!..

*Aləmə nur saçdı tarix boyunca*
*Məbədlər başına tac olan hilal.*
*Daim ucalasan! Savaş günündə*
*Əsgər silahıyla səni tən görüm.*
*Yalnız zəfər çalmış şəhid önündə*
*Səni alqış üçün əyilən görüm.*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 24 il keçir



**"Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir".**

***Heydər ƏLİYEV***
***Azərbaycan xalqının Ümummilli Lideri***

# Dövlətin ən ali hüquqi qüvvəyə malik qanunu

**Bu günlərdə müstəqil Azərbaycan dövlətinin tarixində mühüm hadisənin - ölkəmizin qanunvericilik sisteminin əsasını təşkil edən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 24 illiyi qeyd olunur. İyirmi dörd il bundan öncə müasir dövlətçilik tariximizdə müstəqillik, suverenlik, demokratiya və dünyəvilik kimi dəyərlərin əbədi və dönməz olduğunu bəyan edən ölkəmizin Əsas Qanunu qəbul edilib.**

Yeni Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artması baxımından çox mühüm ictimai-siyasi hadisə kimi qiymətləndirilməlidir. Əsas Qanunun qəbul edilməsi, eyni zamanda, ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisi oldu. Bu mərhələ isə ilk növbədə, dövlət siyasətinin mərkəzində insanın və vətəndaşın, onun hüquq və azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının durması ilə səciyyələnir.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının hazırlanması və qəbul edilməsi, həmçinin ölkəmizdə konstitusionalizm ideyalarının inkişafı müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Dövlətimiz üçün olduqca çətin sınaq illərində məhz Ulu Öndər Heydər Əliyev ölkə vətəndaşlarını ümumi ideya ətrafında birləşdirməyə, ölkədə hökm sürən qeyri-sabitliyə son qoyulmasına nail oldu, dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatların reallaşdırılmasına başlanıldı.

Əminliklə demək olar ki, Ulu Öndər Heydər Əliyevin 1969-cu il iyulun 14-də ilk dəfə siyasi hakimiyyətə gəlişi Azərbaycanda milli intibahın başlanğıc tarixidir. Bu mənada 2019-cu il əlamətdar hadisə - Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsinin 50 illik yubileyinə təsadüf edir. Belə ki, 1969-1982-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikasına, 1993-2003-cü illərdə müstəqil Azərbaycan dövlətinə rəhbərlik etmiş Ulu Öndər istər Sovetlər Birliyi, istərsə də müstəqillik dövründə Vətəninə və xalqına sədaqətlə xidmət edib. Tarixi hadisələr də bunu sübut edir ki, Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasının, ölkənin düşdüyü olduqca ağır vəziyyətdən xilasının yeganə yolu Heydər Əliyevin quruculuq xətti idi.

Ümummilli Lider Heydər Əliyev müstəqil və qüdrətli Azərbaycan dövlətinin əsasını qoyaraq dövlətin gələcək inkişaf konsepsiyasını da müəyyənləşdirib. Bu gün ictimai sabitliyin davamlı prosesə çevrilməsi, neft strategiyasının hazırlanması Ulu Öndərin dövlətçilik konsepsiyasının tərkib hissəsidir.

Şübhəsiz ki, 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra Ulu Öndərin qarşısında duran əsas məsələlərdən biri məhz dövrün tələblərinə cavab verən yeni qanunvericilik bazasının yaradılması idi. Bunun üçün isə bu qanunvericilik bazasının əsası olan yeni Konstitusiyanın qəbul edilməsi bir zərurətə çevrilmişdi. Beləliklə, Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi Konstitusiya Komissiyası tərəfindən hazırlanaraq ümumxalq müzakirəsinə çıxarılan Əsas Qanunun layihəsi 1995-ci il noyabrın 12-də keçirilən referendumda qəbul edildi. Bu əlamətdar hadisə Azərbaycanın müstəqillik illərinin ən mühüm nailiyyətlərindən biri kimi, cəmiyyət həyatında köklü dəyişikliklərə yol açdı, insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaradaraq ölkədə müasir, dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması işində mühüm addım oldu.

Ulu Öndər Konstitusiya Komissiyasının ilk iclaslarında komissiyanın sədri olaraq müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsinin zəruriliyini əsaslandırıb, Əsas Qanunda əks olunmasını vacib hesab etdiyi məqamları xüsusi olaraq vurğulayıb: "Demokratiya prinsipləri geniş məfhumdur. Əgər bu, bir tərəfdən insanların, vətəndaşların hüquqlarının təmin edilməsi prinsipləridirsə, ikinci tərəfdən dövlətçiliyin qurulmasını, dövlət quruculuğu prosesinin aparılmasını, inkişaf etdirilməsini və Azərbaycanda həm dövlətin, həm xalqın, həm də hər bir vətəndaşın hüquqlarının qorunmasına təminat verə bilən dövlətin qurulub yaranmasını təmin edən prinsiplər olmalıdır.

Konstitusiya gərək elə bir konstitusiya olsun ki, bir tərəfdən insanların hüquqlarını qorusun, insan azadlıqlarını, demokratiyanı təmin etsin, siyasi plüralizmi təmin etsin, mətbuat, söz, din, dil azadlığını təmin etsin, ikinci tərəfdən isə dövləti, cəmiyyəti idarə etmək üçün təsisatların yaranmasını təmin etsin".

Ölkə Konstitusiyasının ən yüksək hüquqi qüvvəyə malik olan normaları bütün hüquqi tənzimetmə sisteminin əsasında durmaqla, ictimai münasibətlərin inkişafında sabitlik, müəyyənlik amili kimi çıxış edir, ölkədə təşəkkül tapmış dövlətçilik ənənələrinin, hüquq qaydasının, demokratik cəmiyyətin qurulmasına xidmət edir.

Azərbaycan Respublikasının Konstitusiyasında müasir sivil cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə əksini tapıb: insan şəxsiyyətinə və ləyaqətinə hörmət; dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması vasitəsilə xalqın hakimiyyət funksiyalarının həyata keçirilməsində iştirakı; insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu; siyasi sistemdə plüralizmə təminat verilməsi; sosial ədalətə nail olmaq, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və sair.

Dövlət quruluşunun başlıca prinsiplərini müəyyən etməklə yanaşı, Konstitusiya həm də cəmiyyət həyatının müxtəlif sahələrinə dövlətin müdaxiləsinin meyarlarını və belə müdaxilənin yol verilən hədlərini dəqiqləşdirir, bu sahədə dövlət siyasətinin ümumi istiqamətlərini müəyyən edir.

Əsas Qanun Konstitusiya quruluşunun vacib başlanğıcı kimi xalq hakimiyyətini bəyan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir.

Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin Azərbaycan dövlətinin ali məqsədi kimi müəyyənləşdirilməsi, dövlətin üzərinə hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat vermək vəzifəsinin qoyulması xüsusi əhəmiyyət kəsb edir. Bu, onun birbaşa göstəricisidir ki, insan amili ölkə Konstitusiyasının əsas diqqət mərkəzində durur.

Şübhəsiz ki, insan və vətəndaş hüquq və azadlıqlarının tanınması və onların təminatı mexanizmlərinin mövcudluğu müstəsna əhəmiyyət kəsb edir. Cəmiyyətin inkişafı yalnız insanın ali dəyər, onun hüquq və azadlıqlarının təmin edilməsinin isə dövlətin başlıca vəzifəsi kimi qəbul edildiyi halda mümkündür. Bu baxımdan Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının, habelə onların reallaşdırılmasının ümumi mexanizmləri olduqca geniş şəkildə təsbit edilib. Xüsusi olaraq vurğulanmalıdır ki, Əsas Qanunda həmin hüquqlar və azadlıqlar dövlətin öz vətəndaşlarına verdiyi xüsusi imtiyaz kimi deyil, hər kəsin doğulduğu andan malik olduğu ali dəyərlər kimi ifadə edilir və onlar toxunulmaz, pozulmaz və ayrılmaz elan olunur. Bununla bağlı, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını qorumağın qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi olması ilə bağlı konstitusiya müddəası olduqca önəmlidir.

Əsas Qanunun ən böyük fəsli də bütünlüklə əsas insan və vətəndaş hüquqları və azadlıqlarına həsr edilib. Həmin fəsildə demokratik, hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquq və azadlıqlar, onların reallaşdırılması mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq, qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Ölkə Konstitusiyası müstəqil dövlətimizin inkişafının əsas istiqamət və prinsiplərini özündə ehtiva edən hüquqi sənəd olaraq, xalqın rifahına xidmət edən dövlət idarəetmə mexanizminin təməlinə çevrilib.

Konstitusiya dövlətin ən ali hüquqi qüvvəyə malik qanunu olmaqla, canlı orqanizm kimi daim inkişafdadır. Bu baxımdan bu ali sənədə də müəyyən vaxtlarda müvafiq əlavə və dəyişikliklər edilərək müasir tələblərə uyğunlaşdırılması kifayət qədər səciyyəvi haldır. Belə ki, hüquq sisteminin əsasını təşkil edən Konstitusiya cəmiyyətin müasir dövrlə uzlaşan inkişaf xüsusiyyətlərini, obyektiv sosial tələbata çevrilən yenilikləri, o cümlədən insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli müdafiə mexanizmlərini ehtiva etməlidir.

Bu zərurətdən irəli gələrək 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixlərində keçirilmiş referendumlar nəticəsində Konstitusiyaya bir sıra əhəmiyyətli əlavələr və dəyişikliklər edilib. İlk dəfə 2002-ci ildə konstitusiya dəyişikliklərinə yaranan ehtiyac bir çox sahələrdə qabarıq nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilən referendumun nəticəsi kimi Əsas Qanuna obyektiv reallıqdan irəli gələn bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bir çox sahələrində əldə edilən nailiyyətlər, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının inkişafı, beynəlxalq məkana inteqrasiyanın sürətlənməsi, bütövlükdə nəzərə çarpan dəyişikliklərin və pozitiv yeniliklərin baş verməsi Əsas Qanunda da bir sıra əlavə və dəyişikliklərin edilməsi məsələsini gündəmə gətirib. Bu məqsədlə 2009-cu il martın 18-də keçirilən ümumxalq səsverməsi nəticəsində edilən əlavə və dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, xüsusilə insan hüquq və azadlıqları ilə bağlı əhəmiyyətli məsələlərin bu ali sənəddə daha dolğun şəkildə ehtiva edilməsinə xidmət edib.

Qeyd edilməlidir ki, cəmiyyət həyatındakı yeniliklərin mütərəqqi xarakteri dövlət idarəçiliyi mexanizminin səmərəli fəaliyyətinə yol açmaqla yanaşı, ictimai münasibətləri tənzimləyən qanunların müasirləşdirilməsinə olan tələbatı da qabarıq şəkildə üzə çıxarır. Bu baxımdan 2009-cu ildə keçirilmiş konstitusiya islahatlarından keçən 7 il ərzində Azərbaycanda baş verən mütərəqqi dəyişikliklər, həmçinin yeni qlobal çağırışların nəticəsi olaraq 2016-cı ildə sonuncu referendum keçirilmişdir.

Ümumilikdə Konstitusiyaya edilən əlavə və dəyişikliklər insan hüquq və azadlıqlarının qorunması mexanizmlərinin təkmilləşdirilməsinə, siyasi idarəçilik təsisatlarının fəaliyyətinin effektivliyinin artırılmasına, dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin imzalanması prosedurunun təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının qorunmasında bələdiyyələrin məsuliyyətinin artırılmasına xidmət etmişdir. Əsas Qanuna edilən 23 dəyişikliyin əsas hissəsinin sırf insan hüquq və azadlıqlarının qorunması ilə əlaqədar olması, sözsüz ki, 2016-cı il referendumunun mütərəqqi mahiyyətini qabarıq şəkildə üzə çıxarıb.

Əminliklə deyə bilərik ki, Konstitusiyaya edilmiş əlavə və dəyişikliklər demokratik prinsip və dəyərlərin bərqərar olmasının, insana, onun hüquq və azadlıqlarının təminatına ən yüksək səviyyədə göstərilən diqqətin təzahürüdür. Konstitusiya islahatları ölkəmizdə demokratikləşmə proseslərinin genişləndirilməsi, insan hüquq və azadlıqlarının daha səmərəli şəkildə müdafiə edilməsi, cəmiyyətdə bərqərar olan sabitliyin və təhlükəsizliyin, yüksək templə gedən inkişafın möhkəmləndirilməsi məqsədlərinə xidmət edir.

Ölkə Konstitusiyası müstəqil dövlətimizin inkişafının əsas istiqamətlərini və prinsiplərini özündə ehtiva edən hüquqi sənəd kimi dövlət idarəetmə mexanizminin təməlinə çevrilərək Azərbaycan xalqının rifahına xidmət göstərir. 1995-ci ildə Konstitusiyanın qəbulu ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə yol açıb.

Qeyd edilməlidir ki, məhkəmə hakimiyyəti, onun hüquqi dövlətdə rolu və yeri ilə bağlı başlanğıc ideyalar Əsas Qanuna bünövrə kimi qoyulmuş konseptual əsaslardan irəli gəlir. Konstitusiyada məhkəmə hakimiyyətinin anlayışı verilib, cəmiyyətdə yaranan hüquq münasibətlərinin həlli məsələsi məhkəmə orqanlarının səlahiyyətinə aid edilib. Məhkəmə hakimiyyətinə verilmiş yeni səlahiyyətlər nəzərə alınmaqla ilk dəfə olaraq Əsas Qanunda hakimlərin qərəzsizliyi və müstəqilliyinin vacib təminatları əksini tapıb.

Bu gün məhkəmə sistemi vətəndaş cəmiyyətinin və beləliklə də, hüquqi dövlətin inkişafında özünəməxsus və əvəzedilməz rol oynayır. Məhkəmələrin üzərinə düşən vəzifələrin qanunvericiliklə müəyyən edilmiş qaydada effektiv şəkildə həyata keçirilməsi son nəticədə dövlətin adından qəbul edilən məhkəmə aktlarına cəmiyyətin etimadının gücləndirilməsi üçün xüsusi zəmin yaradır. Həyata keçirilən dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına, kiçik və orta sahibkarlığın dəstəklənməsinə yönəlmiş islahatlar inzibati və iqtisadi sahələrdə ədalət mühakiməsinin səmərəliliyinin daha da artırılmasını labüd edir.

Dövlət başçısının siyasi iradəsi ilə məhkəmə sisteminin təkmilləşdirilməsi prosesi uğurla davam etdirilir. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərman ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafı üçün olduqca böyük önəm daşıyır.

Bu fərmanı ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının məntiqi davamı, islahatların aparılmasının yeni keyfiyyət mərhələsi kimi səciyyələndirmək olar. Fərman ölkədə məhkəmə hakimiyyətinin müstəqilliyini gücləndirməklə yanaşı, xalqın hakimiyyətin bu qoluna ictimai etimadının artmasına, nüfuzunun yüksəldilməsinə, vətəndaşların hüquq və qanuni mənafelərinin daha etibarlı müdafiəsinin, ədalət mühakiməsinin səmərəliliyinin inkişafına xidmət edir.

Məlum olduğu kimi, Konstitusiyanın Azərbaycanın dövlət və hüquq sisteminə gətirdiyi mühüm yeniliklərdən biri ali konstitusiya ədalət mühakiməsini həyata keçirən orqanın yaradılması oldu. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Konstitusiyada təsbit olunmuş norma və prinsiplərin qorunması, hakimiyyətin müxtəlif orqanları arasında müəyyən edilmiş səlahiyyət balansının təmin edilməsi, habelə konstitusiya hüquq və azadlıqlarının müdafiəsi məqsədi daşıyır və bütövlükdə cəmiyyətə, onun inkişafı prosesinə keyfiyyət baxımından müsbət təsir göstərir, hüququn inkişafı və tətbiqi təcrübəsinin istiqamətləndirilməsinə xidmət edir.

Fəaliyyətə başladığı dövrdən bu günə qədər Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ümumilikdə 405 qərar və 111 qərardad qəbul olunub. Bu qərarlar və onlarda formalaşdırılmış hüquqi mövqelər Konstitusiyanın aliliyinin təmin olunmasına, Əsas Qanunda təsbit edilmiş insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir.

Qeyd edilməlidir ki, 2019-cu il ərzində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən sorğu, müraciət və konstitusiya şikayətləri əsasında bir sıra mühüm qərarlar qəbul olunub. Belə ki, Gəncə Apelyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1-ci, 5-ci, 18-ci, 61-ci və 65-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsi və "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında" Minsk Konvensiyası baxımından şərh edilməsinə dair" 2019-cu il 7 iyun tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd edib ki, Azərbaycan Respublikasının tərəfdar çıxmadığı beynəlxalq müqavilələr üzrə xarici dövlətin məhkəmə hökmlərinə əsasən yaranmış məhkumluqların nəzərə alınması yolverilməzdir.

Həmin Qərarda Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın və Cinayət Məcəlləsinin müvafiq normalarının mənası baxımından belə qənaətə gəlib ki, şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız ölkəmizin Cinayət Məcəlləsinə daxil olunduqdan sonra tətbiq edilə bilər və məhkumluğun yaranması üçün Azərbaycan Respublikasının məhkəmələri tərəfindən çıxarılmış və qanuni qüvvəyə minmiş ittiham hökmü olmalıdır.

Həmçinin qeyd edilib ki, məhkəmənin irəli sürülmüş ittiham daxilində cinayətin tövsifini dəyişmədən cinayətin residivini cəzanı ağırlaşdıran hal kimi nəzərə alaraq Cinayət Məcəlləsinin müddəalarını rəhbər tutmaqla törədilmiş əmələ uyğun cəza təyin etməsi və cəzaçəkmə müəssisəsinin növünü seçməsi ittihamdan kənara çıxma kimi qiymətləndirilə bilməz.

Bununla yanaşı, Konstitusiya Məhkəməsinin Plenumu vurğulayıb ki, ibtidai araşdırmanı həyata keçirən orqanlar cinayət işi üzrə istintaq apararkən təqsirləndirilən şəxsin ölkə daxilində, həmçinin xarici dövlətlərdə əvvəllər cinayət törətməsi və məhkumluğunun olub-olmaması faktının müəyyən edilməsi məsələsinə xüsusi diqqətlə yanaşmalıdırlar.

Bakı Apelyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 36.9-cu maddəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 377.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2019-cu il 29 iyul tarixli qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd edib ki, ailə qanunvericiliyində ər-arvadın ümumi əmlakının bölünməsi haqqında onların tələbinə xüsusi iddia müddətinin tətbiqinin nəzərdə tutulması vətəndaşları nikahları pozularkən ümumi əmlakdakı paylarını bölüşdürməyə təşviq etməklə mülki dövriyyənin sabitliyinin təmin edilməsinə, ər-arvadın ümumi əmlakı ilə bağlı gələcəkdə yarana biləcək çoxsaylı məhkəmə mübahisələrinin qarşısının alınmasına yönəlib.

Həmin qərarda Konstitusiya Məhkəməsinin Plenumu müvafiq icra hakimiyyəti orqanı və məhkəmələr tərəfindən nikaha xitam verilərkən tərəflərə onların nikah dövründə əldə etdikləri ümumi əmlaka dair paylarının bölünməsi məsələsinin Ailə Məcəlləsinin 36.9-cu maddəsində göstərilən müddət çərçivəsində həll olunmasının məqsədəmüvafiqliyinin izah edilməsini tövsiyə edib.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edib ki, məhkəmələr ər-arvadın ümumi əmlakdakı paylarının bölünməsi tələbinə dair iddialara baxarkən müvafiq tərəfin ümumi əmlakla bağlı hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu günü müəyyən etmək üçün işin konkret hallarını ətraflı araşdıraraq müvafiq nəticəyə gəlməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun bu qərarı ilə mülki və ailə qanunvericiliyinin müvafiq normalarına verilmiş şərh nəticəsində həmin normaların təcrübi tətbiqində müəyyən dəyişikliklərə səbəb ola biləcəyini nəzərə alaraq, mülki dövriyyənin sabitliyinin, məhkəmə qərarlarının stabilliyinin və nüfuzunun qorunması məqsədilə Plenum hesab edib ki, qərarda əks olunmuş hüquqi mövqelər onun qüvvəyə minməsindən sonra yaranan, habelə qərarın qüvvəyə mindiyi tarixdə (gündə) məhkəmələrin icraatında olan mübahisələrə şamil olunmalıdır.

Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9-cu və 91.7-ci maddələrinin şərh edilməsinə dair" 2019-cu il 14 oktyabr tarixli qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd edib ki, hər bir şəxs hüquqlarının müdafiəsində öz mülahizəsinə görə, istənilən üsul və vasitələrdən istifadə edə bilər, lakin bu zaman o, qanunla qadağan olunmuş hərəkətlərə yol verməməlidir. Belə qadağanın qanunvericilikdə birbaşa nəzərdə tutulması vacib deyil. Bu, müvafiq hüququn həyata keçirilməsinin qanunla müəyyən olunmuş qaydası ilə də şərtləndirilə bilər.

Bu qərarda, həmçinin qeyd olunub ki, şübhəli və ya təqsirləndirilən şəxs müdafiə hüququnu həyata keçirərkən özünə bəraət qazandırmaq və ya məsuliyyətini yüngülləşdirmək məqsədilə ona qarşı irəli sürülmüş ittihamla əlaqədar sübutlar təqdim etməklə istintaqın və məhkəmə araşdırmasının gedişinə təsir etmək hüququna malikdir. Lakin bu zaman şübhəli və ya təqsirləndirilən şəxs cinayətin törədilməsinə aidiyyəti olmayan hər hansı bir şəxsin adını bilərəkdən çəkdiyi təqdirdə bilə-bilə yalan xəbərçiliyə görə məsuliyyət daşımalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edib ki, qanunverici, Cinayət-Prosessual Məcəlləsinin 90.9-cu və 91.7-ci maddələrində şübhədən və ya irəli sürülmüş ittihamdan müdafiə olunmaq üçün cinayətin törədilməsinə aidiyyəti olmayan şəxs haqqında bilərəkdən yalan məlumatların verilməsində ifadə olunan əməlləri istisna etmişdir və bu hal yalan xəbərçilik barəsində cinayət təqibi həyata keçirilən şəxsin özünümüdafiə vasitəsi kimi qəbul oluna bilməz.

Həmin qərarda Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlib ki, Cinayət-Prosessual Məcəlləsinin adıçəkilən maddələrinin "Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə" müddəası şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin cinayətdə iştirakı barədə bilə-bilə yalan məlumatların verilməsini nəzərdə tutur. Belə hərəkət özünümüdafiənin qanuni üsulu kimi qəbul edilə bilməz və bu əməl Cinayət Məcəlləsinin 296-cı maddəsi ilə bilə-bilə yalan xəbərçilik etmə cinayətinə görə məsuliyyət yaradır.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsi gənclər arasında hüquq düşüncəsinin və eyni zamanda, hüquq mədəniyyətinin inkişafına və təbliğinə xüsusi diqqət yetirir. Gənclərin hüquqi inkişafı və Konstitusiyanın əsasları və mahiyyətinin daha dərindən öyrənilməsi məqsədilə ənənəvi olaraq, hər il ölkəmizin müxtəlif bölgələrində Konstitusiya Günü münasibətilə ali və orta təhsil müəssisələrində hüquq olimpiadası keçirilir. Dövlətin ən yüksək normativ hüquqi aktı olan Konstitusiya haqqında ətraflı bilikləri olan gənclər şübhəsiz ki, hüquqi cəmiyyətin inkişafına gələcəkdə öz töhfəsini verə biləcəklər.

Ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq, Konstitusiya Məhkəməsinin fəaliyyətində gənclərin iştirakı müasir dövrün tələblərinə uyğun aparılır. Belə ki, ali təhsil müəssisələrinin tələbələri mütəmadi olaraq məhkəmədə təcrübə keçərək Konstitusiya nəzarəti orqanının iş fəaliyyəti ilə əyani surətdə tanış olmaq üçün geniş imkanlar əldə edirlər.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nda və dövlət başçısının 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanları qarşısında qoyulan vəzifələrdən irəli gələrək Konstitusiya Məhkəməsində Könüllü Proqramı həyata keçirilir.

Konstitusiya Məhkəməsində həyata keçirilən Könüllü Proqramına gənclərin marağı kifayət qədər böyükdür. Belə ki, könüllülər Konstitusiya Məhkəməsi Aparatının müxtəlif şöbə və sektorlarında təcrübə keçir, Məhkəmənin Plenum iclaslarının təşkil edilməsi, habelə vətəndaşların qəbulu prosesində bilavasitə iştirak edir, səlahiyyətli subyektlərin sorğuları, məhkəmələrin müraciətləri, həmçinin vətəndaşların şikayətlərinin öyrənilməsi vasitəsilə Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqların müdafiə mexanizmi ilə yaxından tanış olurlar.

2020-ci ildə qəbul edilməsinin 25 illiyi tamam olan Azərbaycan Respublikasının Konstitusiyası dövlətin ilkin başlanğıclarını özündə ehtiva edən əsas qanun kimi özünü tam olaraq doğruldub. Qanunvericilik sisteminin əsasını təşkil edən, ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya hər zaman dövlətçilik ənənələrinin, hüquq qaydasının qorunmasına xidmət edir.

Ölkəmizdə həyata keçirilən çoxşaxəli islahatların əsasında güclü iqtisadiyyat dayanır. Məlum olduğu kimi, bu il dövlətimiz üçün əlamətdar hadisə - "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyi tamam olub. "Əsrin müqavilə"sinin imzalanması Azərbaycanın dirçəlişinə, iqtisadi inkişafına böyük yol açdı. Ulu Öndər Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nəticəsində dövlətimiz regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, bir sıra nəhəng layihələrin həyata keçirilməsində regionda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrildi.

Azərbaycan dünyanın sabit və dayanıqlı inkişaf edən ölkələri sırasında olmaqla, sözün əsl mənasında, müstəqil siyasət yürüdən dövlətdir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu müstəqil və demokratik dövlət quruculuğu kursu sürətlə yeniləşən dünyanın tələblərinə cavab verir. Dövlətin inkişaf konsepsiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da təkmilləşdirilib, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə mütərəqqi dəyişikliklərin edilməsi nəticəsində ölkəmizdə yüksək inkişaf dinamikasına nail olunub.

İnkişaf özü davamlı proses olduğundan, bu davamlılığın təmin edilməsi üçün islahatların həyata keçirilməsi vacibdir. Dövlət başçısı tərəfindən həyata keçirilən kadr və struktur islahatları idarəetmə sistemində aparılan yeniliyin növbəti mərhələsidir. Aparılan struktur islahatları dövlət idarəçiliyinin modernləşməsinə və optimallaşmasına, şəffaflığın, müxtəlif sahələrdə çevikliyin artırılmasına xidmət edir, son nəticədə isə Əsas Qanunda əksini tapmış prinsiplərin təmin edilməsinə yönəlib.

Bu gün Azərbaycan dünya siyasətində xüsusi və mühüm yer tutur. Artıq bir neçə ildir ki, Azərbaycan regional və qlobal əhəmiyyətli məsələlərin müzakirə edildiyi məkana çevrilib. Ölkəmiz beynəlxalq miqyaslı tədbirlərə, forumlara, dövlət başçılarının Zirvə görüşlərinə, eyni zamanda, mötəbər humanitar və iqtisadi tədbirlərə, idman yarışlarına layiqincə evsahibliyi edir.

2019-cu ildə də bir sıra olduqca mötəbər beynəlxalq tədbir məhz Bakıda keçirilib. Məlum olduğu kimi, oktyabrın 15-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü Bakıda təşkil edilib və Türk Şurasına sədrlik Azərbaycana keçib.

Əsası 10 il əvvəl - 2009-cu ildə Naxçıvanda keçirilən Zirvə Görüşündə qoyulan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü Türk Şurasının nüfuzlu quruma çevrildiyini bir daha təsdiqlədi. Bu Zirvə toplantısı bir daha göstərdi ki, Azərbaycan yalnız bölgədə əsas oyunçu olmaqla kifayətlənmir, eyni zamanda, türkdilli dövlətlər sırasında əsas ölkə statusunu qazanıb.

Həmçinin oktyabrın 25-26-da 120 ölkəni birləşdirən və BMT-dən sonra ikinci ən böyük siyasi dialoq platforması olan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə evsahibliyini məhz ölkəmiz edib. Hərəkatın növbəti Zirvə Görüşünün ölkəmizdə keçirilməsi Azərbaycanın qlobal proseslərdəki rolunun və beynəlxalq nüfuzunun gündən-günə artdığını bir daha təsdiqləyir. Prezident İlham Əliyev Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana keçməsi ilə bağlı qeyd edib: "Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür".

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı fəaliyyətini ərazi bütövlüyü, suverenlik, dövlətlərin və xalqların bir-biri ilə qarşılıqlı hörmət prinsipləri əsasında yaşaması, bir-birinin daxili işlərinə qarışmama kimi əsaslar olduğu tarixi Bandunq prinsipləri üzərində quracaq.

Təqdirəlayiq haldır ki, bu əsaslar ölkəmizin xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşərək ölkə Konstitusiyasında birbaşa təsbit edilib.

Əminliklə demək olar ki, Azərbaycanın 2019-2022-ci illər ərzində Hərəkata sədrlik etməsi dövlətimizin beynəlxalq aləmdə rolunun və nüfuzunun daha da artmasına, həmçinin regionda mövqelərimizin möhkəmlənməsinə geniş imkanlar açacaq.

Ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvü olmaqla siyasi, həmçinin iqtisadi və mədəni cəhətdən həm regional, həm də qlobal mərkəz olaraq qəbul edilir. Dövlətimizin bu cür inkişafı və tərəqqisi şübhəsiz ki, dövlət başçısının şəxsi nüfuzu, qətiyyəti, siyasi iradəsi, uğurlu daxili və xarici siyasəti nəticəsində mümkündür. Əminik ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı tarixi nailiyyətlərə imza atmaqda bundan sonra da davam edəcək.

Fürsətdən istifadə edərək Azərbaycan xalqını Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi adından əlamətdar bayramlar 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik edir, xalqımıza xoşbəxt həyat və firavanlıq arzulayırıq.

***Fərhad ABDULLAYEV,***
***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri***




# Ümumxalq sevgisinin möhtəşəm ifadəsi

## Ağdamda keçirilən "Bayraq yürüşü"ndə minlərlə rayon sakini iştirak etmişdir





*Əvvəli 1-ci səh.*

Tədbir iştirakçıları Quzanlı qəsəbəsində Heydər Əliyev prospekti ilə tarixi Soltanbud təpəsinin yaxınlığında yerləşən Dövlət Bayraq meydanına qədər yürüş etmişlər. Yürüş iştirakçıları meydanın ərazisində yerləşən şəhidlərin əziz xatirəsinə ucaldılmış abidə kompleksinin önünə tər qızılgüllər qoymuş, qəhrəman oğulların xatirəsini ehtiramla yad etmişlər.

Təhsil nazirinin müavini Firudin Qurbanov, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Milli Məclisin deputatı Aydın Mirzəzadə, "N" saylı hərbi hissənin komandir müavini, polkovnik-leytenant Babək Səmidli tədbir iştirakçıları qarşısında çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində dövlətimizin beynəlxalq aləmdə artan nüfuzundan söz açmış, regionda ən böyük gücə çevrilən ordumuzun yüksələn qüdrətinə diqqət çəkmişlər. Onlar ölkənin sosial-iqtisadi və ictimai-siyasi həyatının bütün sahələrini əhatə edən uğurlu islahatlar strategiyasının Azərbaycanı daha da gücləndirdiyini, üçrəngli bayrağımızın tezliklə Ağdamda, Şuşada, Xankəndidə və işğaldan azad olunacaq digər ərazilərdə dalğalanacağını əminliklə bildirmişlər.

Tədbirdə əsgərlər döyüş hazırlığı səviyyəsini nümayiş etdirmiş, musiqiçilər tərəfindən vətənpərvərlik ruhunu tərənnüm edən mahnılar ifa olunmuşdur. Sonra qonaqlar hərbi hissədə əsgərlərlə birgə nahar etmişlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***









# Dövlət Tərcümə Mərkəzi Elmi Şurasının növbəti toplantısı keçirilib

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə Mərkəzin sədri Afaq Məsud açaraq 2019-cu il ərzində ərsəyə gətirilmiş layihələrdən, görülmüş işlərdən danışıb, dövlət dilindən istifadə və tərcümə işinin təkmilləşdirilməsi istiqamətində mərkəz tərəfindən həyata keçirilən tədbirlərin nəticələrini, əldə olunan uğurları qeyd edib:

"Bildiyiniz kimi, 2015-ci ildən başlayaraq Dövlət Tərcümə Mərkəzi tərəfindən dövlət qurumlarında həyata keçirilən yazışmaların, rəsmi saytlarda yerləşdirilən mətn və materialların dil və tərcümə keyfiyyəti üzrə mütəmadi qaydada monitorinqlər aparılır. Yoxlamalar nəticəsində bu sahədə vəziyyətin son dərəcədə acınacaqlı olduğu, mətn və materialların xeyli sayda dil və tərcümə qüsurları ilə tərtib edildiyi, dövlət dilindən istifadədə kobud qrammatik, leksik, üslub və məna xətalarına yol verildiyi aşkarlanır, qüsurlara dair ekspert rəyləri hazırlanaraq 100-dən çox quruma göndərilsə də, vəziyyət acınacaqlı olaraq qalırdı. Mövcud durumun aradan qaldırılması - dövlət dilindən düzgün istifadə və tərcümə işinin təkmilləşdirilməsi mexanizmlərinin qurulmasını, dil və tərcümə sahəsinin müvafiq səviyyədə təşkilini təmin edəcək digər tədbirlərin həyata keçirilməsi zərurətini gündəmə gətirirdi ki, Mərkəz son bir neçə ildə bu istiqamətdə kifayət qədər müsbət nəticələrə nail ola bildi. Belə ki, ilk addım olaraq, ölkədə fəaliyyət göstərən dil və tərcümə mütəxəssislərinin ayarlanması, dillər və sahələr üzrə peşəkar tərcüməçilərin müəyyən edilməsi prosesinə start verildi. İl boyu davamlı şəkildə təşkil olunan "Seçim turları" adlı respublikamiqyaslı, mərhələli test imtahanlarından uğurla keçmiş, Mərkəzin sertifikatına sahib olmuş mütəxəssislərin məlumat bazası yaradıldı və prosesin davamı kimi dövlət qurumları adları bazaya daxil edilmiş tərcüməçilərlə bağlı məlumatlandırıldı.

Dövlət dilindən düzgün istifadəni şərtləndirən növbəti zəruri addım - mükəmməl orfoqrafiya vəsaitinin ərsəyə gətirilməsi idi ki, bu boşluq da çevik şəkildə aradan qaldırıldı. Belə ki, səhvlər və yanlışlıqlar dolu orfoqrafiya lüğəti Mərkəz tərəfindən ərsəyə gətirilmiş yeni, mükəmməl "Azərbaycan dilinin işlək orfoqrafiya sözlüyü" ilə əvəz olundu, nəşrlər dövlət qurumları, eləcə də digər aidiyyəti təşkilatların istifadəsinə verildi. Sevindirici haldır ki, uzun illər, gərgin zehni əmək tələb edən bütün bu işlər, davamlı şəkildə həyata keçirilən tədbirlər bu ildən başlayaraq müsbət nəticələr verməyə başladı. Belə ki, son yoxlamalar bu sahədə vəziyyətin gözəçarpan dərəcədə dəyişdiyini, əvvəlki illərdə xeyli sayda dil və tərcümə qüsurlarının aşkarlandığı bir çox dövlət saytlarının artıq Azərbaycan ədəbi dil norma və qaydalarına uyğun şəkildə tərtib edildiyi, onların ingilis və rus versiyalarında rast gəlinən tərcümə qüsurlarının xeyli dərəcədə aradan qaldırıldığı müşahidə olundu. Beləliklə, uzun illər beynəlxalq internet məkanında ölkə haqqında xoşagəlməz təəssürat yaradan mənzərə tam olmasa da, aradan qaldırıldı. Eyni dönüş bu ildən etibarən KİV-də də müşahidə olundu. Əvvəlki illərdə xeyli sayda qrammatik, leksik, üslub və məna xətalarıyla tərtib olunan sayt və portalların dövlət dilindən istifadə mədəniyyətində irəliləyişlərə nail olunduğu özünü büruzə verməyə başladı. Bütün bunlar, əlbəttə ki, sevindiricidir və əldə olunan uğurların Mərkəz tərəfindən ərsəyə gətirilən, sözün əsl mənasında, böyük zehni əməyin bəhrəsi olduğunu xüsusi qeyd etməyi vacib bilirəm".

Daha sonra Mərkəzin 2019-cu ildəki fəaliyyəti, həyata keçirilən yerli və beynəlxalq nəşr layihələri, "Azərbaycan dilinin orfoqrafiya sözlüyü"nün yeni nəşri ilə bağlı hesabatlar dinlənilib, sözlüyün yeni nəşrinə daxil edilməsi vacib bilinən sözlər, eləcə də ali təhsil müəssisələrində ehtiyac duyulan tədris vəsaitlərinin, elmi ədəbiyyatların tərcüməsi və nəşri ətrafında fikir mübadiləsi aparılıb.

Sonda 2020-ci ilin tematik planı, Mərkəzin xarici ölkələrdə nümayəndəlikləri ilə iş, dil və tərcümə sahəsinin təkmilləşdirilməsi istiqamətində atılacaq növbəti addımlar müzakirə olunub.

Toplantının sonunda ölkədə tərcüməçi əməyinin qiymətləndirilməsinə təkan verəcək "Tərcümə sənətinə verdiyi töhfələrə görə xüsusi Fəxri Diplom" adlı mükafat təsis edilib.

# Seulda OANA-nın XVII Baş Assambleyası işini davam etdirib



Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) XVII Baş Assambleyası noyabrın 8-də Seulda işini davam etdirib.

Baş Assambleya AZƏRTAC-ın sədrliyi və Koreya Respublikasının Yonhap agentliyinin təşkilatçılığı ilə keçirilir. İclasda 28 ölkədən 32 xəbər agentliyinin rəhbərləri və nümayəndələri iştirak edirlər.

Assambleyanın ikinci günündə "Jurnalistika üçün yeni çağırışlar: texnoloji yeniliklər və xəbərlərin etibarlılığı" mövzusunda konfransın 2-ci və 3-cü sessiyaları keçirilib. Sessiyalarda xəbər buraxılışı və yayımında tətbiq edilən texnoloji yeniliklər, həmçinin mediaya etimad və feyk məlumatlarla mübarizə məsələləri müzakirə olunub.

Avstraliyanın "Associated Press" agentliyinin baş redaktoru Antoni Gilles və Aralıq Dənizi Xəbər Agentlikləri Alyansının baş katibi Georgios Penintaksın moderatorluğu ilə keçən sessiyalarda Dennis Veitziq, Duan Atkins, Troy MakQraf təqdimatlarla çıxış ediblər. Çıxışlarda xəbər agentlikləri tərəfindən buraxılan fotoların internetdə müəlliflik hüququnun qorunması, izlənməsi, xəbərlərin statistikasının aparılması kimi proqram təminatları barədə məlumat verilib. Eyni zamanda, feyk xəbərlərin informasiya mühitinə təsiri, yalan məlumatlarla mübarizə yolları, mediaya etimadın vacibliyi barədə fikirlər bildirilib.

Assambleya çərçivəsində OANA İcraiyyə Komitəsinin 45-ci iclası keçirilib. OANA-nın prezidenti Aslan Aslanovun sədrliyi ilə keçən iclasda Baş Assambleyada müzakirəyə çıxarılacaq məsələlərə baxılıb. Növbəti Baş Assambleyanın yeri və vaxtı, yeni üzvlərin qəbulu, təşkilatın nizamnaməsinə dəyişikliklər, icraiyyə komitəsinin tərkibi ilə bağlı məsələlər müzakirə olunub.

# Asiya və Sakit Okean Ölkələrinin Xəbər Agentlikləri Təşkilatında sədrlik Yonhap agentliyinə keçib

## AZƏRTAC OANA-nın vitse-prezidenti seçilib



Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına (OANA) 2019-2022-ci illərdə sədrlik AZƏRTAC-dan Koreya Respublikasının Yonhap agentliyinə keçib.

Bu barədə qərar təşkilatın noyabrın 8-də Seulda başa çatan Baş Assambleyasında qəbul edilib.

Assambleyada Yonhap agentliyinin rəhbəri Ço Sanq Bo OANA-nın prezidenti vəzifəsinin icrasına başlayıb.

Qeyd edək ki, AZƏRTAC OANA-ya 2016-2019-cu illərdə rəhbərlik edib. Qurumun XVI Baş Assambleyası həmin ilin noyabrında Bakıda təşkil olunub.

XVII Baş Assambleyada İcraiyyə Komitəsinin yeni tərkibi təsdiq edilib. AZƏRTAC yekdilliklə OANA-nın vitse-prezidenti seçilib, Monqolustanın Montsame agentliyi İcraiyyə Komitəsinə, Pakistanın PPİ agentliyi isə Texniki Komitəyə üzv qəbul olunub. OANA-nın İcraiyyə Komitəsinə hazırda 13 agentlik daxildir. Yonhap prezidentdir, AZƏRTAC, Rusiyanın TASS, Çinin Sinxua və Türkiyənin Anadolu agentlikləri vitse-prezidentdir, Avstraliyanın AAP, Malayziyanın Bernama, Bəhreynin BNA, İranın İRNA, Yaponiyanın Kyodo, Vyetnamın VNA, Livanın NNA, Monqolustanın Montsame agentlikləri isə üzvdür.

Növbəti XVIII Baş Assambleyanın 2022-ci ildə İranda keçirilməsi ilə bağlı İRNA-nın təklifi qəbul olunub. Assambleyada Fələstin Dövlətinin WAFA agentliyinə OANA-da müşahidəçi statusu verilib. Bundan əlavə, iştirakçılar təşkilatın nizamnaməsinə təklif edilən dəyişiklikləri, OANA-nın atributlarını və Seul Bəyannaməsini təsdiqləyiblər.

OANA-nın baş katibi Vüqar Seyidov təşkilatın AZƏRTAC-ın sədrlik etdiyi 2016-2019-cu illəri əhatə edən fəaliyyəti barədə məlumat verib, maliyyə və texniki hesabatlarını diqqətə çatdırıb. Sədrlik dövründə AZƏRTAC təşkilatın veb-saytının təkmilləşdirilməsi, üzvlərin fəallığının artırılması istiqamətində bir sıra layihələr həyata keçirib. AZƏRTAC-ın təqdim etdiyi təkliflər paketi təşkilatın İcraiyyə Komitəsinin Livan, İran və Vyetnamda keçirilən iclaslarında geniş müzakirə olunub.

Vüqar Seyidov OANA-nın yeni seçilən baş katibi Donq Min Liyə uğurlar arzu edib.

Baş Assambleyada həmçinin 2019-cu il üçün OANA Mükəmməllik Mükafatının qalibləri olan Vyetnamın VNA və Çinin Sinxua agentliklərinə diplomlar və pul mükafatları təqdim edilib.

Tədbirdə çıxış edən İranın İRNA agentliyinin baş direktoru Seyed Ziya Haşemi, Yaponiyanın Kyodo agentliyinin prezidenti Toru Mizutani, Çinin Sinxua agentliyinin vitse-prezidenti Siyanq Liu 2016-2019-cu illərdə OANA-ya uğurlu rəhbərliyə görə AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanova təşəkkürlərini bildiriblər.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov OANA-nın yeni prezidenti, Yonhap agentliyinin rəhbəri Ço Sanq Boya uğurlar arzulayıb, təşkilatın növbəti dövrdə inkişafının dinamik olaraq davam edəcəyinə əminliyini bildirib.

Assambleya başa çatdıqdan sonra Yonhapın sədrliyi ilə OANA İcraiyyə Komitəsinin 46-cı iclası keçirilib. İclasda yeni katibliyin görəcəyi işlər, OANA-nın fəaliyyətinin inkişaf perspektivləri müzakirə olunub. Eyni zamanda, növbəti - 47-ci İcraiyyə Komitəsinin iclasının 2020-ci ilin yazında Montsame agentliyinin təşkilatçılığı ilə Monqolustanda keçirilməsi qərara alınıb.

Bununla da OANA-nın XVII Baş Assambleyası başa çatıb.






# 30 min tondan çox Ağcabədi pambığı hazırdır

## Bu, son deyil, məhsul yığımı davam edir

*Əvvəli 1-ci səh.*

Dövlət başçısının kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı müəyyən etdiyi yeni aqrar strategiyaya uyğun olaraq rayonda mütərəqqi texnologiyalar, innovativ üsullar əsasında hazırlanıb həyata keçirilən kompleks təşkilat-təsərrüfat tədbirləri fərəh doğuran bəhrəni verməkdədir. Təbii ki, dövlətin aqrar sektora verdiyi güclü dəstək qazanılan əmək nailiyyətlərinin əsas şərtidir.

Aylardan bəri çəkilən zəhmətin, axıdılan alın tərinin, elmi əsaslarla reallaşdırılan təsərrüfat tədbirlərinin səmərəli nəticəsi bu günlər rayonda məhsul bolluğundan qaynaqlanan bayram əhvali-ruhiyyəsi yaratmışdır. Hünərvər tarla bahadırları parlaq əmək qələbəsinin sevincini yaşayırlar. İndiyədək rayonda 30 min tondan çox "ağ qızıl" tədarük olunmuşdur. Bu, müstəqillik dövründə Ağcabədi pambıqçılarının qazandıqları rekord nəticədir. Fərəhlidir ki, hələ tarlalarda xeyli məhsul var. Məqsəd böyük zəhmət bahasına yetişdirilmiş məhsulu son qramınadək yığıb tədarük etməkdir.



Keçən il rayonun təsərrüfatlarında 23.304 ton pambıq tədarük olunmuşdur. Bu il pambıq əkinlərinin sahəsi daha 452 hektar genişləndirilərək 10.452 hektara çatdırılmışdır. Keçən ilin nəticəsinə görə, pambıq tarlalarında hər hektarın orta məhsuldarlığı 23.3 sentner olmuşdusa, indi 28.1 sentnerdir. Mövsümün sonunadək, heç şübhəsiz, 30 sentner səviyyəsi əlçatmaz olmayacaqdır. Qazanılan nailiyyət kollektiv əməyin nəticəsi olsa da, onun reallaşmasında ayrı-ayrı qabaqcılların töhfəsi daha böyükdür. Tofiq İsmayılovun, İsgəndər Hüseynovun, İbrahim Ağamirovun, Raqub Qasımovun, Etibar Şirinovun və Pərviz Namazovun rəhbərlik etdikləri fermer təsərrüfatları indiyədək hər hektardan 45-60 sentner arası "ağ qızıl" tədarük etmişlər. Fərəhlə qeyd edək ki, rayonun qabaqcıl pambıqçıları kimi şöhrət qazanmış Tofiq İsmayılov və İsgəndər Hüseynov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşlar.



Ağcabədidə pambıqçılığın ağırlığı əsasən MKT İK, "Azər Pambıq" və "P-Aqro" məhdud məsuliyyətli cəmiyyətlərin rayon filiallarının üzərinə düşür. MKT İK MMC-nin Ağcabədi filialı bu il 5.152 hektar sahədə pambıq əkmişdir. Aqrotexniki tələblərə ciddi əməl edilməsinin nəticəsidir ki, tarlalarda bol məhsul yetişdirilmişdir. Zavodun direktoru Şahin Məhərrəmov söhbət zamanı deyir:

- Pambıq ölkəyə valyuta gətirən strateji məhsul olmaqla yanaşı, onun bolluğu kənd əhalisinin firavan həyatını, xoş güzəranını şərtləndirir. İndiyədək 16 min tona yaxın pambıq tədarük etmişik. Hər hektarın orta məhsuldarlığı isə 31 sentnerdən çoxdur. Nailiyyət heç kəsi arxayınlaşdırmır. Məhsul yığımı davam edir.

Ağcabədi pambıqçılarının qazandığı parlaq əmək qələbəsinə sevinməyə, qürur duymağa rayon suvarma sistemləri idarəsinin kollektivinin haqqı da var. Pambıq suya tələbkar bitkidir. Yayın qızmar günlərində tarlaları bol suvarma suyu ilə təmin etmək üçün melioratorlar bütün vegetasiya dövrü ərzində gücləndirilmiş iş rejimi şəraitində çalışmışlar. Nəticədə pambıq kolları sudan korluq çəkməmiş, aqrotexniki tələblərə uyğun qaydada suvarılan tarlalarda bol məhsul yetişdirilməsi təmin edilmişdir.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov pambıqçıların əmək qələbəsindən həvəslə söhbət açır:

- Prezident İlham Əliyev qeyri-neft sektorunu inkişaf etdirmək, ölkə iqtisadiyyatını şaxələndirmək üçün kənd təsərrüfatının yüksəlişinə nail olmağı, aqrar sektordakı böyük potensialdan səmərəli istifadə etməyi mühüm vəzifə kimi qarşıya qoymaqla bizə düzgün yol göstərir, aydın istiqamət verir. Dövlət başçısının verdiyi tapşırıq və tövsiyələrin məsuliyyətini yüksək qiymətləndirərək kənd təsərrüfatında ənənəvi sahələrin inkişafına nail olmaq üçün bütün qüvvələri, mövcud əmək ehtiyatlarını səfərbər etmişik. Bu il pambıqçılıqda 30 min ton səviyyəsi bizim üçün hədəf idi. Artıq bu hədəfə çatmışıq. Amma heç kəs arxayınlaşmır. Hər pambıq kolu üçün müəyyən zəhmət çəkildiyini nəzərə alıb məhsulu son qozasınadək yığmaq əzmindəyik. Bununla onu demək istəyirəm ki, Prezident İlham Əliyevin yeni dövr üçün müəyyən etdiyi aqrar strategiya özünü uğurla doğruldur. Rayonumuzun müasir iqtisadi durumunu nəzərə alıb deyə bilərəm ki, bol pambıq istehsalı milyonlarla manat qazanc gətirir. Pambıqçılığın aparıcı sahəyə çevrilməsi kəndlərdə işsizliyi, demək olar ki, aradan qaldırmışdır. Pambıqçılıqdan əldə edilən gəlir kənd əhalisinin yaxşı dolanışığını, xoş güzəranını təmin edir. Dövlətin əsas məqsədi də budur ki, onun vətəndaşı faydalı işlə məşğul olub, yaşayış səviyyəsini yüksəltsin.

Barlı-bəhrəli payız öz bərəkət boğçasını bu yerlərdə səxavətlə açıb. Ağcabədinin qəhrəman kənd əməkçiləri tarlaların bol məhsulunu min bir həvəslə yığıb çoxsaylı "ağ qızıl" tayaları ucaltmışlar. Sanki başı qarlı dağlar çiyin-çiyinə verib cərgələnmişdir. Halal zəhmətin, mənalı əməyin, fəal vətəndaş mövqeyinin yaratdığı qürurverici "ağ qızıl" dağları isə kəndlinin firavan yaşayışına təminat verir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# AMEA-da "Qayaüstü mədəniyyət: mif, rəsm və dünya" mövzusunda beynəlxalq elmi seminar keçirilib



Noyabrın 8-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında "Qayaüstü mədəniyyət: mif, rəsm və dünya" mövzusunda beynəlxalq elmi seminar işinə başlayıb.



AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində kitabxananın foyesində AMEA əməkdaşlarının rəsm əsərləri və əl işlərindən ibarət sərgi nümayiş etdirilib.

Beynəlxalq seminarı giriş sözü ilə AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev açaraq iştirakçıları salamlayıb, tədbirin olduqca aktual mövzuya həsr edildiyini bildirib. Akademik AMEA-da Müstəqil Dövlətlər Birliyi Humanitar Əməkdaşlıq Fondunun dəstəyi ilə bundan öncə də müxtəlif mövzulara həsr olunmuş beynəlxalq elmi konfransların keçirildiyini, dövlətlər arasında elmi əməkdaşlıq ənənələrinin yenidən bərpa edilməsi istiqamətində mühüm addımlar atıldığını söyləyib.

AMEA-nın rəhbəri ötən il keçirilmiş beynəlxalq elmi konfransda da çox aktual və müasir problemin müzakirəyə çıxarıldığından bəhs edib. "Fizika və lirika" mövzusunda AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasında və Rusiyanın Dubna şəhərindəki Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda təşkil olunmuş müzakirələrin MDB ölkələrində humanitar sahənin alimləri ilə dəqiq və təbiət elmlərini təmsil edən elm adamlarının qarşılıqlı əlaqələrinin formalaşdırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini deyib.

Natiq bildirib ki, bu gün "Qayaüstü mədəniyyət: mif, rəsm və dünya" mövzusunda keçirilən beynəlxalq elmi seminarda qədim sivilizasiyaların, ibtidai insan düşərgələrinin formalaşması, habelə bədii düşüncənin və yazı mədəniyyətinin əmələ gəlməsi kimi ciddi elmi problemlər müzakirə olunacaq. Vurğulayıb ki, hazırkı mərhələdə sivilizasiya və insan məskunlaşması məsələləri beynəlxalq elmi mühitdə geniş müzakirə edilən aktual problem olduğu üçün burada səslənəcək tezislər dünya elminin inkişafına mühüm töhfələr verəcək. Bəşəriyyətin qədim qayaüstü mədəniyyətdən müasir mədəniyyətəqədərki keçilmiş yolunun dərslərini və mühüm elmi nəticələrini müəyyən etmək istiqamətində mühüm addımlar atılacaq.

AMEA-nın prezidenti beynəlxalq elmi seminarın işinə uğurlar arzulayıb.

Sonra AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək dünya elmində qayaüstü mədəniyyətin ilkin insan birliklərinin daş yaddaşı kimi qəbul edildiyini, qayaüstü təsvirlərin etnosun mənşəyi və qədimliyini müəyyən etməyə imkan verən əsas faktorlardan biri olduğunu bildirib.

"Azərbaycan qayaüstü mədəniyyəti özündə oturaq mədəniyyəti, habelə əfsanə ilə reallıqları bir yerdə əks etdirir" deyən akademik Azərbaycan qayaüstü rəsmlərindəki araba, öküz, yallı, əmək və qoşqu alətləri təsvirlərinin regiondakı oturaq mədəniyyətin nişanələri olduğunu vurğulayıb.

İsa Həbibbəyli Bakı şəhərindən 40 kilometr aralıda yerləşən məşhur Qobustan qayaüstü rəsmlərinin bu torpaqlarda yaşayan ulu babalarımızın həyatı və fəaliyyətinin daş salnaməsi olduğunu nəzərə çatdırıb. Qeyd edib ki, qayaüstü mədəniyyətlər insanlığın inkişaf tarixinin bir karvan yoludur.

AMEA-nın vitse-prezidenti beynəlxalq seminarın keçirilməsini qayaüstü mədəniyyətləri tədqiq edən elm adamlarının koordinasiya edilməsinə doğru atılmış əhəmiyyətli addım kimi qiymətləndirib.

Tacikistan Elmlər Akademiyasının vitse-prezidenti, akademik Karamatullo Olimov "Qayaüstü mədəniyyətin fəlsəfi və ekzistensial aspektləri" mövzusunda məruzə edib. Alim qayaüstü rəsmlərdə estetik dəyərlə yanaşı, qədim insanların dünyagörüşü ilə bağlı dərin fəlsəfi fikirlərin gizləndiyini qeyd edib.

Tədbirin əhəmiyyətli mövzuya həsr olunduğunu vurğulayan məruzəçi bu kimi tədbirlərin mütəmadi olaraq keçirilməsinin qayaüstü mədəniyyətin öyrənilməsinə mühüm töhfələr verəcəyinə əminliyini ifadə edib.

Kemerov Dövlət Universitetinin Tarix və Beynəlxalq Münasibətlər İnstitutunun direktoru, tarix üzrə elmlər doktoru, professor Olqa Sovetova isə "Minusinsk çökəkliyindəki qayaüstü mədəniyyətin qeyri-real görüntülər dünyası" mövzusunda məruzə ilə çıxış edib. Olqa Sovetova tədbirdə müzakirə olunan mövzunun aktuallığını önə çəkərək Azərbaycanda qayaüstü mədəniyyətin öyrənilməsinə ayrılan diqqəti yüksək qiymətləndirib. O, laboratoriya şəraitində qayaüstü mədəniyyətin öyrənilməsində tətbiq olunan yeni tədqiqat metodlarından da bəhs edib.

Rostov İdarəetmə, Biznes və Hüquq İnstitutunun rektoru, iqtisad üzrə elmlər doktoru, professor İmran Əkpərov qayaüstü mədəniyyətin öyrənilməsində rəqəmsal dövrün, informasiya-kommunikasiya texnologiyalarının verdiyi imkanlardan danışıb.

Seminarda Qırğızıstan-Rusiya Slavyan Universitetinin Tarix və mədəniyyətşünaslıq kafedrasının müdiri Lyudmila Stavskaya da çıxış edərək Qırğızıstanın qaya sənətinə dair kitabı təqdim edib.

Tədbirdə həmçinin "Qaya mədəniyyətinin fəlsəfi və ekzistensial aspektləri", "Qayaüstü mədəniyyət və müasirlik. Tarixi və mədəni refleksiya və etnoqrafik konvergentlik", "Gəmiqaya abidə kompleksi: Cənubi Qafqazın bənzərsiz incisi", "Suuk Dube (Uzgen) mağara rəsmlərinin öyrənilməsi", "Yaxın Şərqin maddi mədəniyyətindəki Gəmiqaya rəsmlərinin analoqları" və digər mövzularda məruzələr dinlənilib, müzakirələr aparılıb.

Beynəlxalq seminar "Qayaüstü mədəniyyət: tarixin izləri və təsvirlər", "Qayaüstü mədəniyyət: süjetlər və piktoqramlar" və "Qayaüstü mədəniyyət: dünya təcrübəsi və Azərbaycan reallıqları" mövzularını əhatə edən sessiyalarla davam edib. Sessiyalarda ölkə alimləri ilə yanaşı, Rusiya, Qazaxıstan, Moldova, Qırğızıstan, Tacikistan və digər ölkələrdən gələn alim və mütəxəssislər də elmi məruzələrlə çıxış ediblər.

Seminar işini bu gün Qobustan Milli Tarix-Bədii Qoruğunda davam etdirəcək.

# Daxili İşlər naziri Əlahiddə Çevik Polis Alayında sıra baxışı keçirib

Kütləvi informasiya vasitələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, noyabrın 8-də Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Əlahiddə Çevik Polis Alayında və Bakı Şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında vakant post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək istəyən gənclərin sıra baxışını keçirib.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aidiyyəti baş idarə və idarə rəislərinin də iştirak etdikləri tədbirdə nazir hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə ayrı-ayrılıqda maraqlanıb. Ümumilikdə 368 iddiaçının arasından daha hazırlıqlı olan 238 nəfər seçilib. Onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Tədbirdə çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında keçirildiyini vurğulayıb.

General-polkovnik V.Eyvazov Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, mükəmməl təhsil almış savadlı, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq, müstəqilliyimizi, milli maraqlarımızı hər şeydən uca tutan gənclərdən asılı olduğunu dəfələrlə vurğuladıqlarını məmnunluqla xatırladıb. Belə yüksək mənəvi, işgüzar keyfiyyətlərə malik kadrların dövlət idarəçiliyində də daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətə qəbul üçün hər zaman əhəmiyyətli addımların atıldığını, hazırkı seçimlərin də göstərilən sahədə həyata keçirilən məqsədyönlü dövlət siyasətinin növbəti bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Nazir xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək gələcək xidməti fəaliyyətlərində polisin yüksək adını və mundirin şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini daim artırmalarını, öz üzərlərində səylə çalışmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, onların şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, bir sözlə, vətəndaş məmnunluğunun təmininə layiqli töhfələrini vermələrini tövsiyə edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

# Azərbaycan XİN Zöhrab Mnatsakanyanın Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı fikirlərinə münasibət bildirib

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva erməni xarici işlər naziri Zöhrab Mnatsakanyanın İsveçin Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı zamanı Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı söylədiyi fikirlərə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı KİV-in sualını cavablandıran mətbuat katibi deyib: "Əslində, Ermənistan xarici işlər naziri yeni heç bir fikir söyləməyib: beynəlxalq səviyyədə işğalçı kimi tanınan bir ölkə rəsmisinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsindəki ərazilərini guya ki, özünün işğal etməsi barədə eyni əsassız iddiaları. Məsələnin beynəlxalq hüquqi tərəfini bir kənara qoyaq, bu, heç normal düşüncə çərçivəsinə belə sığmır. Təsəvvür edin, bir ölkə qanunsuz şəkildə digər ölkənin ərazilərini işğal edir, bu ərazilərdə tarixən yaşayan yerli azərbaycanlıları etnik təmizləməyə məruz qoyur, sonra da iddia edir ki, "bu ərazilərdə yaşayan 150.000 erməninin təhlükəsizlik problemi var". Bu ermənilərin ailələri, evləri, adları olduğunu səsləndirən erməni nazir, görəsən, öz ölkəsinin təcavüzkar siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlının evlərindən məhrum olduğunu, ailələrinin param-parça edildiyini, adlarının məcburi köçkün və qaçqına çevrildiyini heç düşünübmü? Əlbəttə yox, əgər düşünsəydi, bu kimi cəfəng fikirlərlə özünü və xalqını aldatmazdı və münaqişənin həlli istiqamətində real addımlar atılardı. Mnatsakanyan anlamalıdır ki, onun dediyi kimi, bizim və ya sizin həqiqət olmur; həqiqət birdir və bu həqiqət dünya ictimaiyyətinə çox yaxşı bəllidir. Sadəcə, mövcud həqiqətləri saxtalaşdıraraq onu öz maraqları naminə müxtəlif şəkillərdə təqdim etmək təcrübəsi də mövcuddur ki, bunu da ən yaxşı Ermənistan bacarır".

## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Mühüm mərhələ

### Namizədlərin qeydə alınması şərtləri. Qeydə alınmış namizədlərin statusu, onların bərabərliyi və fəaliyyətinin təminatları. Namizədin namizədlik statusundan imtina etməsi

*Əvvəli 1-ci səh.*

İrəli sürülmüş namizədlərin qeydə alınması üçün namizəd və ya siyasi partiyaların, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18:00-dək müvafiq seçki komissiyasına namizədin müdafiəsi üçün toplanmış imzalar olan imza vərəqələrini və digər seçki sənədlərini təqdim etməlidir.

Müvafiq seçki komissiyasına namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri ilə birlikdə seçici imzalarının toplanması haqqında Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatına əlavə edilmiş yekun protokolunun iki nüsxəsi, namizədin öhdəlik ərizəsindəki özü haqqında məlumatlarda dəyişiklik olubsa, bu barədə bildiriş, namizədin seçkilərin təyin edildiyi gündən əvvəlki bir illik dövrü əhatə edən gəlirlərinin miqdarı və mənbələri barədə məlumat, gəlirlər barədə məlumatların alındığı təşkilatlardan həmin gəlirlərin illik cəmi barədə arayış, namizədə məxsus əmlak barədə Seçki Məcəlləsinin 5 saylı əlavəsinə uyğun formada tərtib edilmiş məlumat, seçici imzalarının toplanması üçün sərf edilmiş vəsait haqqında məlumatlar da göstərilməklə, namizədin ilkin maliyyə hesabatı təqdim edilməlidir.

Müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra 7 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir. Siyasi partiyanın, siyasi partiyalar blokunun irəli sürdüyü namizəd qeydə alındıqda müvafiq seçki komissiyası qeydiyyat barəsində qərarında namizədin müvafiq siyasi partiya, siyasi partiyaların bloku tərəfindən irəli sürüldüyünü göstərir. Qeydiyyat barədə və ya qeydiyyatdan imtina barəsində qərarda onun qəbul olunduğu tarix və vaxt göstərilir.

Namizədin qeydə alınması barədə qərarın surəti müvafiq seçki komissiyası tərəfindən həmin qərarın qəbul edildiyi gündən etibarən bir gün müddətində namizədə, namizəd irəli sürmüş siyasi partiyanın və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə verilməli, qeydiyyatdan imtina olunubsa, həm də bunun əsasları göstərilməlidir.

Seçki Məcəlləsinin 60-cı maddəsində qeydiyyatdan imtina üçün aşağıdakı əsaslar müəyyən edilmişdir:

- imzaların toplanması zamanı Seçki Məcəlləsinin 57.1-ci maddəsinin tələblərinin pozulması;
- Seçki Məcəlləsinin 57-ci və 58-ci maddələrində göstərilən sənədlərin düzgün rəsmiləşdirilməməsi və ya olmaması;
- namizədlərin, siyasi partiyanın, siyasi partiyalar bloklarının Seçki Məcəlləsinin 57-ci və 58-ci maddələrinə uyğun təqdim etdikləri məlumatların düzgün olmaması (siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən irəli sürülən namizədlərə bu əsas o vaxt tətbiq edilə bilər ki, göstərilən düzgün olmayan məlumatlar namizədin təqsirindən buraxılsın);
- namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımi saydan az olması;
- namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondunun yaradılması qaydasının və müvafiq seçki fondunun vəsaitinin xərclənməsi qaydasının pozulması (bu əsas yalnız o vaxt tətbiq edilə bilər ki, əvvəllər bu cür pozuntuya görə xəbərdarlıq edilsin və ya cərimə tətbiq olunsun);
- Seçki Məcəlləsinin 55-ci maddəsinin tələblərinin siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi, habelə siyasi partiya, siyasi partiyaların bloku və ya namizəd tərəfindən pozulması (bu əsas yalnız o vaxt tətbiq edilə bilər ki, əvvəllər bu cür pozuntuya görə xəbərdarlıq edilsin və ya cərimə tətbiq edilsin - bu cür pozuntu digər məsuliyyətə səbəb olmursa).

Onu da qeyd edək ki, göstərilən hallar qeydiyyatdan imtinaya dair qərarın çıxarılması üçün əsas götürüldükdə qərar buraxılan səhvə (qüsura, pozuntuya) mütənasib olmalıdır. Təqdim edilən sənədlərdə səhvlər və pozuntular namizəd və ya siyasi partiyaların, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası namizədi və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsini 24 saat müddətində bu haqda xəbərdar edir və onun tərəfindən müvafiq düzəlişlər edildikdən sonra namizədi qeydə alır.



Namizədin hərəkətlərində cinayət məsuliyyətinə və ya inzibati məsuliyyətə səbəb olan hüquq pozuntusu əlamətləri aşkar edildikdə seçki komissiyası qanunvericiliyin pozulmasında təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi məsələsinə baxılması üçün müvafiq sənəd və materialları hüquq mühafizə orqanlarına göndərir.

Müvafiq seçki komissiyaları aidiyyəti seçki dairəsi üzrə qeydə alınmış namizədlər barədə məlumatları qeydiyyatdan sonra 24 saat müddətində kütləvi informasiya vasitələrinə təqdim edirlər. Seçki komissiyaları qeydə alınmış namizədlər barədə məlumatları səsvermə gününə ən azı 15 gün qalmış seçki komissiyasının otaqlarında, məlumat lövhələrində yerləşdirirlər. Namizədin qeydiyyatının ləğv edilməsi barədə məlumatlar da həmin qaydada yerləşdirilir.

Qeydə alınmış hər bir namizədə dairə seçki komissiyası tərəfindən qeydiyyat vəsiqəsi verilir.

Qeydə alınmış bütün namizədlər, onların statusları nəzərə alınmaqla, bərabər hüquqa malikdirlər və bərabər vəzifələr daşıyırlar.

Dövlət orqanlarında işləyən, bələdiyyə qulluğunda olan və ya kütləvi informasiya vasitələrində əmək və mülki hüquq müqaviləsi əsasında işləyən qeydə alınmış namizədlər seçki kampaniyasında iştirak etdikləri müddətdə xidməti vəzifələrini yerinə yetirməkdən azad olunurlar, müvafiq əmrin təsdiq edilmiş surətini qeydiyyat günündən ən geci 3 gün ərzində onları qeydə almış seçki komissiyasına təqdim edirlər. Onlar öz vəzifə və xidməti mövqeyindən imtiyaz qazanmaq və üstünlük əldə etmək məqsədilə istifadə edə bilməzlər.

Vəzifə və xidməti mövqedən üstünlük əldə etmək məqsədilə istifadə olunması nəticəsində bərabərlik prinsiplərinin pozulması halları Seçki Məcəlləsinin 55.2-ci maddəsi ilə müəyyənləşdirilir.

Dövlət vəzifələrində olan qeydə alınmış namizədlərin yalnız öz vəzifələrini icra etməkdən azad olunduğu vaxtda seçkiqabağı təşviqat aparmaq hüququ vardır.

Vəzifəli şəxslər, teleradio verilişləri və kütləvi informasiya vasitələri redaksiyalarında işləyən jurnalistlər və yaradıcı işçilər qeydə alınmış namizəddirlərsə, yaxud qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxsləri və ya səlahiyyətli nümayəndələridirsə, seçkilərin gedişinin kütləvi informasiya vasitələri ilə işıqlandırılmasında iştirak etmək onlara qadağan edilir.

Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxsləri və səlahiyyətli nümayəndələri, qeydə alınmış namizədlərin vəkil edilmiş şəxsləri, göstərilən şəxslərin təsisçisi, sahibi, üzvü və ya işçisi olduğu təşkilatlar, göstərilən şəxslərin və ya təşkilatların tapşırığı ilə hərəkət edən digər fiziki və hüquqi şəxslər xeyriyyə fəaliyyəti ilə məşğul ola bilməzlər. Göstərilən şəxslərin və təşkilatların fiziki və hüquqi şəxslərə, seçicilərə maddi və maliyyə, yaxud digər xidmətlər göstərmək təklifi ilə müraciət etməsi qadağandır. Namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyanın, siyasi partiyalar blokunun üzvlərinin, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin adından və onların müdafiəsi üçün fiziki və hüquqi şəxslərin xeyriyyə fəaliyyəti ilə məşğul olması qadağandır.

Bundan başqa, seçkilərdə iştirak edən qeydə alınmış namizəd Seçki Məcəlləsinin 2.6-cı maddəsində göstərilən şərtlərlə yanaşı aşağıdakı şərtlərə də riayət etməlidir:

- qeydə alınmış digər namizədlərin seçki kampaniyası zamanı öz siyasi ideyalarını və baxışlarını azad və sərbəst yaymaq hüququna hörmət bəsləmək;
- qeydə alınmış digər namizədlərin, siyasi partiyaların, seçicilərin və ictimai təşkilatların hüquqlarına hörmət bəsləmək;
- seçicilərlə azad ünsiyyətin yaradılmasında qeydə alınmış digər namizədlərə mane olmamaq.

Qeydə alınmış namizədə qanunla müəyyən edilmiş nəqliyyat xərcləri onun qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək ödənilir. Taksi və sifarişli nəqliyyat reyslərindən istifadə xərcləri ödənilmir. Şəhərkənarı və şəhərlərarası nəqliyyat xərcləri gediş-gəliş biletinin, şəhər nəqliyyatı üçün isə müvafiq müddətdə istifadə edilmiş gediş-gəliş biletlərinin təqdim edilməsi əsasında ödənilir.

Namizəd qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının, onların vəzifəli şəxslərinin təşəbbüsü ilə işdən, xidmətdən, təhsil müəssisəsindən çıxarıla bilməz və ya razılığı olmadan başqa işə, başqa yerdə işləməyə (oxumağa, xidmət keçməyə) keçirilə bilməz, habelə ezamiyyətə göndərilə bilməz, hərbi xidmətə və ya toplanışa çağırıla bilməz. Qeydə alınmış namizədin seçkilərdə iştirak müddəti qeydə alındığı gündən başlayaraq işlədiyi ixtisas üzrə əmək stajına daxil edilir.

Qeydə alınmış namizəd qeyd edilən müddətdə müvafiq prokurorun razılığı olmadan, namizəd kimi qeydə alındıqdan sonra törətdiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz və məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz. Qeydə alınmış namizəd cinayət başında yaxalanarsa, tutula bilər. Belə razılıq verildikdə və ya qərar qəbul edildikdə, müvafiq prokuror və ya məhkəmə namizədin qeydə alındığı seçki komissiyasını bu barədə dərhal xəbərdar edir.

Qeydə alınmış namizəd, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasından hüdudları, ünvanı və telefonları göstərilməklə seçki məntəqələrinin, məntəqə seçki komissiyalarının siyahısını və səsvermə yerlərinin ünvanlarını ala bilər.

Seçki qanunvericiliyinin humanizm prinsipinə uyğun olaraq qeydə alınmış namizəd səsvermə gününə azı 10 gün qalmış müvafiq seçki komissiyasına yazılı ərizə verərək namizədliyini geri götürə bilər. Belə ərizə geri götürülə bilməz. Daxil olmuş ərizə əsasında müvafiq seçki komissiyası ərizə vermiş namizədin qeydiyyatının ləğvi barədə 1 gün müddətində qərar qəbul edir.

Qeydə alınmış namizədin öz namizədliyini geri götürməsinə məcburedici əsas, habelə siyasi partiyanın, siyasi partiyalar blokunun qeydə alınmış namizədini geri çağırmasına məcburedici əsas dedikdə, qeydə alınmış namizədin məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilərək Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan müvafiq tibbi ekspertiza orqanı tərəfindən təsdiqlənmiş ağır xəstəliyi və ya iştirakını mümkünsüz edən səbəblər nəticəsində namizədin seçki kampaniyası dövründə sağlamlığının pozulması başa düşülür.

Namizədin öz namizədliyini geri götürməsi haqqında məlumat dairə və məntəqə seçki komissiyalarının məlumat lövhələrində yerləşdirilir.

Qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının seçki komissiyasının hərəkəti (hərəkətsizliyi) nəticəsində ona dəymiş zərərin ödənilməsi məqsədilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq məhkəməyə müraciət edə bilər.

***Validə KAZIMOVA,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü***

*Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun Azərbaycan bayrağına!*

**İlham ƏLİYEV**



GILAN HOLDING

Azərbaycan xalqını

Dövlət Bayrağı Günü

münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və ölkəmizə əbədi müstəqillik arzulayır!

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Dövlət Bayrağı Günü

münasibətilə təbrik edir, hər bir ailəyə səadət, firavan həyat arzulayır!

# Bakı Ali Neft Məktəbi Polis Akademiyası ilə "İnformasiya təhlükəsizliyi" üzrə əməkdaşlığa başladı

Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə hər iki təhsil müəssisəsinin nümayəndələri də iştirak ediblər.



Görüşün məqsədi təhsil və elm sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi, hər iki təhsil müəssisəsi, həmçinin onların elmi-pedaqoji kollektivləri arasında sıx əlaqələrin qurulması, təcrübə mübadiləsinin aparılmasıdır.

Qonaqlar əvvəlcə BANM-in tədris binasında tələbələrin hərtərəfli təhsil alması üçün yaradılan şəraitlə, tədris otaqları, çoxfunksiyalı laboratoriyalar, muzey, server otaqları və idman zalları ilə yaxından tanış olublar.

Qonaqları salamlayan rektor Elmar Qasımov onları Ali Məktəbdə görməkdən şad olduğunu bildirib.

O, ali məktəbin yaranma tarixi, fəaliyyəti, əldə etdiyi uğurlar, tədris prosesi, yeniliklər barədə ətraflı məlumat verib. E.Qasımov bildirib ki, Bakı Ali Neft Məktəbində yüksək ixtisaslı ingilisdilli mühəndis kadrları hazırlanır. Ali Məktəbdə beynəlxalq tədris proqramlarına əsasən tədris aparıldığını qeyd edən rektor Böyük Britaniyanın Heriot-Vatt, ABŞ-ın Corc Vaşinqton Universiteti, İsveçrənin Cenevrə Biznes Məktəbi ilə sıx əməkdaşlıq edildiyini, tələbə və təcrübə mübadiləsi həyata keçirildiyini bildirib. Bundan başqa, rektor BANM tələbələrinin nüfuzlu yerli və transmilli şirkətlərdə istehsalat təcrübəsi keçdiyini vurğulayaraq, məzunların hər birinin işlə təmin olunduğunu qeyd edib.

"Sizin rəhbərlik etdiyiniz Polis Akademiyasında da bu ildən "İnformasiya təhlükəsizliyi" ixtisasının tədrisinə başlanılıb. 2018-ci ildən etibarən Bakı Ali Neft Məktəbində də bu ixtisas üzrə qəbul həyata keçirilir. Qeyd edim ki, cari tədris ilində ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanlarının ixtisas seçimi nəticəsində Bakı Ali Neft Məktəbinin 2 ixtisası - İnformasiya təhlükəsizliyi - 673,5 bal, Proseslərin avtomatlaşdırılması mühəndisliyi - 657,8 bal olmaqla, növbəti dəfə ölkə universitetləri arasında ən yüksək keçid balı olan ixtisaslar olub" deyə E.Qasımov əlavə edib.

O, həmçinin Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, bu il Bakı Ali Neft Məktəbinin yüksək bal toplayan 23 tələbəsinin Prezident təqaüdünə layiq görüldüyünü diqqətə çatdırıb.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasının rəisi, polis general-mayoru, hüquq üzrə elmlər doktoru Nazim Əliyev akademiyanın tarixi, fəaliyyəti, strukturu və xidmətləri haqqında ətraflı məlumat verib. BANM ilə Polis Akademiyası arasında əlaqələrin zəruriliyindən danışan rəis Azərbaycan vətəndaşına və dövlətinə xidmət edən mütəxəssislərin informasiya təhlükəsizliyi sahəsində biliklərinin artırılmasının vacib olduğunu deyib.

N.Əliyev bildirib ki, Polis Akademiyasında "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə əyani təhsilə kursantların qəbulu həyata keçirilir: "Azərbaycanda informasiya təhlükəsizliyinin təmin olunmasının qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm qanunlar, normativ aktlar qəbul edilib və sərəncamlar imzalanıb. Bununla belə hesab edirəm ki, informasiya təhlükəsizliyi və kibercinayətkarlıqla mübarizə sahəsində nəzəri biliklərin artırılması üçün bu sahədə mütəxəssislər hazırlayan ali təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi zəruridir".

Sonda təcrübə mübadiləsi, məqsədyönlü işçi əməkdaşlıq proqramları ilə nəzərdə tutulan elmi-pedaqoji qrupların və tələbələrin mübadiləsi, tədris fənlərinin proqramları, iş planları və təlim-tədris texnologiyaları, qarşılıqlı maraq kəsb edən digər məsələlər üzrə əlaqələrin intensivləşdirilməsi qərara alınıb.

***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı şəhəri Nizami rayonunda qurulacaq DOST mərkəzi üçün *təkliflər sorğusuna dəvət*

LOT 1 - Kompüter və periferik avadanlıqların;
LOT 2 - Analitik kamera müşahidə sisteminin qurulması işləri;
LOT 3 - Daxili şəbəkənin (LAN) qurulması işlərinin, giriş-çıxış qeydiyyatı və nəzarət sistemləri, fon musiqi və anons sistemi qurulması işləri;
LOT 4 - Yanğın siqnalizasiya sisteminin qurulması işləri;
LOT 5 - Server otağı və rabitə otaqlarının və fasiləsiz qida mənbəyi (UPS) sisteminin qurulması işləri;
LOT 6 - Növbəliliyin idarə olunması üçün elektron sistemin qurulması işləri satın alınması üzrə keçirilən təkliflər sorğusuna dəvət edir.

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı:** **LOT 1 üzrə 200 (iki yüz) manat**
**LOT 2 üzrə 200 (iki yüz) manat**
**LOT 3 üzrə 200 (iki yüz) manat**
**LOT 4 üzrə 50 (əlli) manat**
**LOT 5 üzrə 200 (iki yüz) manat**
**LOT 6 üzrə 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İstirak haqqı heç bir halda qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər **15 noyabr 2019-cu il saat 15:00-dək** qəbul olunur.

İddiaçıların təklifləri **16 noyabr 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı şəhəri Xəzər rayonunda yeni açılacaq DOST mərkəzi üçün *təkliflər sorğusuna dəvət*

LOT 1 - Kompüter və periferik avadanlıqların;
LOT 2 - Analitik kamera müşahidə sisteminin qurulması işləri;
LOT 3 - Daxili şəbəkənin (LAN) qurulması işlərinin, giriş-çıxış qeydiyyatı və nəzarət sistemləri, fon musiqi və anons sistemi qurulması işləri;
LOT 4 - Yanğın siqnalizasiya sisteminin qurulması işləri;
LOT 5 - Server otağı və rabitə otaqlarının və fasiləsiz qida mənbəyi (UPS) sisteminin qurulması işləri;
LOT 6 - Növbəliliyin idarə olunması üçün elektron sistemin qurulması işləri satın alınması üzrə keçirilən təkliflər sorğusuna dəvət edir.

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı:** **LOT 1 üzrə 200 (iki yüz) manat**
**LOT 2 üzrə 200 (iki yüz) manat**
**LOT 3 üzrə 200 (iki yüz) manat**
**LOT 4 üzrə 50 (əlli) manat**
**LOT 5 üzrə 200 (iki yüz) manat**
**LOT 6 üzrə 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İstirak haqqı heç bir halda qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər **15 noyabr 2019-cu il saat 15:00-dək** qəbul olunur.

İddiaçıların təklifləri **15 noyabr 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

# Dövlət təltiflərinə layiq görülən təhsil işçilərinə mükafatlar təqdim olunub





Noyabrın 8-də Təhsil Nazirliyində dövlət təltiflərinə layiq görülən təhsil işçilərinə mükafatların təqdim olunması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl Təhsil naziri Ceyhun Bayramov, rəhbər təhsil işçiləri və dövlət təltiflərinə layiq görülən müəllimlər Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Tədbirdə çıxış edən Ceyhun Bayramov Prezident İlham Əliyevin sərəncamları ilə təhsilin inkişafındakı xidmətlərinə görə fəxri adlara layiq görülən təhsil işçilərini təbrik edib və onlara fəaliyyətlərində uğurlar arzulayıb. Nazir son illərdə ölkəmizdə insan kapitalının inkişafı, o cümlədən təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər barədə danışıb.

Ceyhun Bayramov Ümummilli Lider Heydər Əliyevin müəllim peşəsinə sonsuz diqqət göstərdiyini xatırladıb, müəllimlərə dövlət qayğısının göstərilməsi istiqamətində görülən işlərin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Nazir deyib ki, son illərdə Təhsil Nazirliyinin fəaliyyətində müəllimlərlə bağlı siyasət prioritet sahəyə çevrilib. Ən ciddi uğurlar da məhz müəllim nüfuzunun, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində əldə edilib.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsindən ötən dövr ərzində bütün pillə və səviyyələr üzrə inkişafı diqqətə çatdıran nazir bildirib ki, qarşıda duran ən vacib vəzifələr təhsilin hər bir vətəndaş üçün əlçatanlığının təmin edilməsi, keyfiyyət göstəricilərin yüksək və rəqabətli olması, eyni zamanda təhsil vasitəsilə dəyərlər sisteminin formalaşdırılmasıdır. Bununla əlaqədar hər bir müəllim, təhsil işçisi qeyd edilən məsələləri əsas fəaliyyət istiqamətləri kimi nəzərə almalı və təmin etməlidir.

Ötən il təhsil sahəsində aparılan islahatların böyük bir mərhələsinə yekun vurulduğunu deyən nazir bildirib ki, diaqnostik qiymətləndirmə tamamlanıb, əməkhaqqı islahatının birinci mərhələsi başa çatdırılıb. Artıq müəllimlərin əməyinin stimullaşdırılması davamlı və silsilə xarakter daşıyır. Bu il Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən sentyabrın 1-dən müəllimlərin əməkhaqları növbəti dəfə artırılıb. Nəticədə Azərbaycan məktəblərində, ümumtəhsil sistemində müəllimlərin orta əməkhaqqı 600 manata çatıb, 1000 manatdan artıq əməkhaqqı alan müəllimlərin sayı isə 5 min nəfəri ötüb və bu sahədə islahatlar davam etdiriləcək.

Azərbaycan müəllimlərinin 15-ci qurultayında Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının yaradılması barədə qərar qəbul edildiyini xatırladan nazir ötən müddət ərzində bu istiqamətdə xeyli sistemli işin görüldüyünü diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov qeyd edib ki, təhsil sistemində, məktəblərin maddi-texniki bazasının müasirləşdirilməsi istiqamətində ötən dövrdə işlər davam etdirilib. Son 15 ildə 3 min 200-dən çox, son 5 ildə 600-dən artıq, bu il isə 84 yeni məktəb binası inşa edilib və əsaslı təmir olunub.

Təhsil sistemində yeniliklərdən danışan nazir bildirib ki, bu tədris ilində buraxılış və qəbul imtahanları ilk dəfə olaraq yeni formata uyğun həyata keçirilib, 400-dək ümumtəhsil məktəbləri üçün yeni dərsliklər hazırlanıb və istifadəyə verilib. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Mərasimdə təltif olunan müəllimlər göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını bildirib, şagirdlərin hərtərəfli bilik və bacarıqlara malik şəxsiyyət kimi yetişdirilməsi işində yüksək əzmlə çalışacaqlarını qeyd ediblər.

Sonra təltif edilən təhsil işçilərinə medal və vəsiqələr təqdim olunub.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2019-cu il 3 oktyabr tarixli sərəncamları ilə təhsilin inkişafındakı xidmətlərinə görə 126 nəfər "Tərəqqi" medalı və "Əməkdar müəllim" fəxri adı ilə təltif edilib.




Bu barədə düşünək

# Dəyişən dünya

## Yaxud ABŞ-ın Silikon vadisi ilə Qubanın Haput kəndini nə birləşdirir

*"Əcnəbi seyrə balonlarla çıxır,*
*Biz hələ avtomobil minməyiriz".*

Mirzə Ələkbər Sabirin bu iki misrasına günümüzün reallıqları prizmasından nəzər salanda fikirləşirsən: "Vallah, elə "balonlar"ı minməyə başlamışıq ki, əcnəbilərin 100 il bundan sonra ağlına belə gəlməz". Əgər Sabir sağ olsaydı, bu iki misranın üstündən xətt çəkərdi və yerinə eləsini yazardı ki, millətin bir zümrəsinin dəymişi qalıb, kalı tökülərdi. Nədən yazardı? Onu özünüz tapın.

Sizə çətin deyilsə, evdən işə gedəndə yolda, ali məktəblərin və kolleclərin həndəvərində, avtobuslarda, metroda əllərindən qaloş boyda smartfonları buraxa bilməyən minlərlə adamı bir qədər diqqətlə müşahidə edin. Hamısı sanki ayrı dünyanın sakinləridir - bədənləri yol gedir, avtobusa əyləşir, metroya minir, amma ruhları ayrı yerdə, ayrı məkandadır. Sanki "qaloşlar"dan asılıb gəzənlər yadplanetlilərdir, bizim reallıqların onlara zərrəcə dəxli yoxdur.

Amma hiss olunur ki, elm öyrənmirlər, faydalı nəyəsə baxmırlar, internet dili ilə desək, mesajlaşırlar, yaxud kəndimizin ağbirçəyi rəhmətlik Gülsabah bibi demişkən, mırtlaşırlar. Kiməsə nəsə yazırlar, göndərirlər, sonra ötəri gülümsəyirlər, cavab alırlar, oxuyanda üzlərinin ifadəsindən görürsən ki, dədəsindən, anasından eşitmədiyi sözlərə rast gəlib. Səhər durun, aynabənddən həyətə boylanın. Görəcəksiniz ki, blokdan ayağını bayıra qoyan qonum-qonşu xanım və bəylərin bir parası tez çantasından "qaloş"u çıxarıb nəsə yazır. Yuxarıdan baxanda elə bil ki, əlindəki telefon yox, yol göstərən bələdçidir. Söndürüb gizlətsə, azacaq, yolu tapmayacaq. Bəli, etiraf edək ki, qathetlərdən, mobil telefonlardan və sosial şəbəkələrdən asılı yeni nəsil yetişməkdədir.

Artıq bu nəsil küçə, bayır, avtobus və metro ilə kifayətlənmir. İndi ad günlərində, toylarda belə, çox adam əlində çəngəl, bıçaqdan çox ağıllı telefon saxlayır. Sanki bu cihaz onların bədəninin, beyninin bir parçasına çevrilib. Hamı selfi çəkir. Təbəssümləri, göndərdikləri öpüşlər saniyəbəsaniyə çəkilir. Xülasə, toy qalır bir yana, hərəsi özünə əlində toydan fotoreportaj hazırlayır. Bir kişi də tapılmır ki, ya öz telefonunu yana tullasın, ya da yanındakına desin: "Bəsdi, yığışdır özünü, sən Sofi Lorensən bəyəm?" Bir kişi cınqırını çıxarsa, on arvad birdən atılar üstünə ki, ayıbdı, otur yerində, hoqqa çıxarma, zəmanə dəyişib.





Zəmanə isə doğrudan da dəyişib. İnsanlar artıq sosial şəbəkələrə elə pərçimləniblər ki, real həyatın çoxlarına dəxli yoxdur. Hamı, bütün qohum-əqrəba sosial şəbəkədə ünsiyyət qurur. Bütün ad günləri, bayramlar orda keçirilir, bütün şəkillər çay kimi hamının evindən ora axır.

Amma həngamə bununla bitmir. Bir də oxuyursan ki, ərinin ad gününü təbrik edir, millətin gözü qabağında açıq yazır ki, birtanəm, yaxşı ki sən varsan. Kişi də cavabına ondan betərini yazır. Axı, biz belə deyildik, kim, nə vaxt yorğanın altında deyilən kəlmələri sosial şəbəkələrin şəridinə sərir? Cavanlar deyəcək ki, bu yaşlılar kələfin ucunu itiriblər. Bizim nəsil də, bizdən əvvəlkilər də ər-arvada aid



*Fotolar Aleksey Pivovarovundur (İtaliya)*

olan sözü çölə çıxarmazdılar. Gəlin gələrdi ər evinə, özündən böyüklərin yanında yaşmaq vurardı, evdəkilər hədiyyəsini alandan sonra kəlmə kəsərdi, danışardı. Hər şeyin öz ölçüsü, hər kəsin öz yeri var idi. İndi hamının yeri nəsə səhv düşüb.

Bu gün təzə doğulan uşaq da görür ki, ata-anasının əlindən smartfon düşmür. Aramsız olaraq körpənin şəkilləri çəkilir, videoları paylaşılır. Bu, sözsüz ki, hamıya sevinc bəxş edir, ancaq körpə də buna alışır, yaşı tamam olar-olmaz mehrini mobil telefona salır, 4-5 yaşında isə artıq onun əlindən telefonu almaq mümkün olmur.

Biz uşaq olanda oyunlarımız telefona bağlı deyildi. "Qaçdı-tutdu", "gizlənpaç", "çiling-ağac" oynayardıq. Əmioğlu, xalaoğlu, dayıoğlu, bibioğlu həmişə bir yerdə idik. Darıxardıq birbirimiz üçün, o üzdən qonaq gedibgələrdik. Sosial şəbəkələr inkişaf edəndən sonra qohumluq əlaqələri də zəifləyib, hamı bir-birindən aralı düşüb. Deyəcəksiniz bu təbiidir, belə də olmalıdır.

Amma gəlin özümüzə bir sual verək. Görəsən dünyanın hər yerində belədirmi?

ABŞ-ın Kaliforniya ştatında San-Fransisko ilə San-Xose arasında Silikon vadisi (Silicon Valley) deyilən məşhur bir ərazi var. Yeni texnologiyaların, internet proqlamlarının hazırlanması ilə məşhurdur. Rəqəmsal dünyanın ən məşhur şirkətləri burada yerləşir. Kompüterlər üçün proqram təminatı hazırlayan, internet vasitəsilə mal və xidmətlər satan çoxsaylı müəssisələrin burada cəmləşməsini nəzərə alaraq son zamanlar bu regionu internet vadisi də adlandırırlar. Kompüter istehsalı və xidmətləri, proqram təminatı sahəsində varlanan sahibkarlar burada öz uşaqları üçün fərqli bir məktəb də yaradıblar. Burada heç bir məktəbdə tətbiq olunmayan ciddi qaydalar hökm sürür. Ən başlıcası isə odur ki, bu məktəbdə 15 yaşınadək uşaqlara kompüterlərdən istifadə etmək qadağan olunub! Mobil telefonların da istifadəsinə qadağa qoyulub. Dərslərin heç birində televizorun, adi monitorun belə istifadəsinə icazə verilmir. Uşaqlar yalnız qələm, dəftər və kitabdan istifadə edirlər. Bizdə isə uşaq 10 yaşından dədəsinin boğazına çökür ki, özünə telefon aldırsın! Əgər sosial şəbəkələr, mobil telefonlar bu qədər faydalıdırsa, niyə onun istehsalçıları öz övladlarına qadağa qoyurlar?!

Axı Qərbdə hamı öz malını tərifləyir, reklam edir. Orada hətta "it yeməyini yemək" kimi bir termin də var. Mənası odur ki, it-pişik üçün yem istehsal edən şirkətlər mallarını alıcılara reklam edərkən onu özlərinin necə yediklərini də göstərirlər. Bununla onlar alıcılarına anladırlar ki, istehsal etdikləri yem hətta insan üçün də ziyanlı deyil, onu rahatlıqla yemək mümkündür. Əgər belədirsə, onda nə üçün Silikon vadisində kompüterlərin, yeni proqramların və sosial şəbəkələrin hesabına milyardlara sahib olan varlılar uşaqlarına öz məhsullarından "yeməyə" icazə vermirlər, müəyyən yaşadək istifadə etməyə qadağa qoyurlar?!

İnternet resurslarında kifayət qədər geniş məlumat bazaları mövcuddur, onlardan faydalananlar da çoxdur. Lakin Silikon vadisindəki yaş məhdudiyyətləri belə qənaətə gəlməyə əsas verir ki, hər halda internet resurslarından müəyyən yaş həddinədək ehtiyatla davranmaq lazımdır.

Dünyada inkişaf etmiş ölkələrə fikir verəndə görürsən ki, onların uğurunun əsas səbəbi genetik dəyərlərə söykənməsində, inkişaf yollarını tarixlərində və milli xarakterlərinin incəliklərinə arxalanmasındadır. Bu baxımdan bizim üçün də vacibdir ki, müasir dünya təcrübəsinə, yeni texnologiyalara söykəndiyimiz qədər də milli-mənəvi dəyərlərimizdən bəhrələnək, bir xalq kimi üstün cəhətlərimizi inkişaf etdirək. Bununla bağlı bir olayı xatırlamaq yerinə düşərdi. Bu yay "Azərbaycan" qəzeti italyan fotoqrafı Aleksey Pivovarovla bir layihənin üstündə çalışırdı. Layihənin mahiyyəti ondan ibarət idi ki, biz rus mənşəli İtaliya fotoqrafının gözü ilə Azərbaycana baxaq. O çəkirdi, biz yazırdıq. Onu da xatırladaq ki, A.Pivovarov Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təsisçisi olduğu "Baku" jurnalının xətti ilə Azərbaycanda dəfələrlə olub və bütün ölkəmizi beş barmağı kimi tanıyır. Onunla Qubada olduq, Haput kəndində gecələdik. Aleksey bilirsinizmi nələri kameranın yaddaşına köçürdü? Kənd uşaqlarını, onların oyunlarını. Yamacda oğlanlar ayrı, qızlar da ayrıca öz oyunlarını oynayırdılar. Bir tərəfdə oğlan uşaqları qol güləşdirib güclərini sınayır, at minir, digər tərəfdə də qızlar əl-ələ tutub dövrə vurub mahnı oxuyurdular. Bizə adi gəlsə də, Aleksey heyrətləndi ki, nadir səhnələrdir, indi dünyanın heç yerində uşaqlar belə oynamırlar. Onlar bu dağların, bu təbiətin bir parçasıdırlar və səhərdən axşamadək kompüterdə oynayan yaşıdlarından fərqlənirlər. Belə çıxır ki, Silikon vadisində biznesmenlər də dərk edirlər ki, uşağı Haputdakı kimi təbiətdən və reallıqlardan ayırmaq düzgün deyil.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva milli-mənəvi dəyərlərin qorunması istiqamətində çox vacib addımlar atır. Onun bu istiqamətdə gördüyü işlər dövlət başçısının ölkəmizdə apardığı islahatlara güclü dəstək verir, milli-mənəvi dəyərlərimizin qorunmasında mühüm rol oynayır. Onu da qeyd edək ki, məsələ ana xətt kimi dövlət başçısının əksər çıxışlarından keçir.

Prezident İlham Əliyev oktyabrın 23-də Ramiz Mehdiyevi qəbul edərkən gənclərin irəli çəkilməsinin, onlara yol verilməsinin zəruriliyini bir daha vurğulamışdır: "Gənclər elə yetişməlidir ki, gələcəkdə onlar ölkəmizi layiqincə idarə edə bilsinlər. Gənclər milli ruhda tərbiyə olunmalıdır. İndi siz də yaxşı bilirsiniz, bu qloballaşma adı altında demək olar ki, bəzi ölkələrin, xalqların milli mənliyi elə bil, silinmək təhlükəsi ilə üzləşib. Qloballaşma adı altında eyniləşmə gedir, bəzi xalqlara yad olan dəyərlər aşılanır və biz buna müqavimət göstəririk. Biz elə gənclər yetişdirməliyik ki, onlar Vətənə, xalqa bağlı olsunlar, müstəqilliyi hər şeydən üstün tutsunlar".

Bu baxımdan biz sağlam nəsil yetişdirmək istəyiriksə, ona övladlarımızın körpəliyindən başlamalıyıq. Özü də bu, bütün cəmiyyətin işi olmalıdır. Yəni hər birimiz çalışmalıyıq ki, övladlarımız internet resurslarında, sosial şəbəkələrdə əriyib itməsinlər, milli dəyərlərimizin, milli əxlaqımızın zəngin çalarlarını qoruyub saxlasınlar.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***




Bayrağımız qürur mənbəyimizdir!
İlham ƏLİYEV



"Nabucco Memarlıq və İnşaat" MMC
Azərbaycan xalqını
9 Noyabr - Dövlət Bayrağı Günü
münasibətilə təbrik edir, firavan həyat və xoş gələcək arzulayır!

NABUCCO A & C
Sənaye, kommersiya və kənd təsərrüfatı təyinatlı tam komplektli hermetik polad binaların layihələndirilməsi, istehsalı, çatdırılması, quraşdırılması və servisi

№ 1 ÇÖRƏK ZAVODU
ÇÖRƏK ZAVODU №1



Azərbaycan xalqını
9 Noyabr - Dövlət Bayrağı Günü
münasibətilə təbrik edir, yüksək tərəqqi və xoş günlər arzulayır!
Süfrəniz bərəkətli olsun!


## Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Noyabrın 8-də Cəlilabad Mərkəzi Rayon Xəstəxanasında Səhiyyə naziri Oqtay Şirəliyev tərəfindən keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev Cəlilabad və Biləsuvardan olan vətəndaşların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib. Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

* * *

Noyabrın 8-də Gənclər və İdman naziri Azad Rəhimov Göyçay rayonunda Mingəçevir, Ağdaş, Ağsu, Göyçay şəhər və rayonlarından olan vətəndaşları qəbul edib. Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, qəbulda 15 vətəndaş iştirak edib. Qəbulda müraciətlərə Gənclər evi və müxtəlif idman qurğularının tikintisi və təmiri, qurğuların lazımi avadanlıqla təchiz olunması, yerlərdə təlim-məşq toplanışlarının keçirilməsinə dəstək göstərilməsi, idman klubunun yaradılması, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi daxil idi.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlərin isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib. Müraciətlərin bir qismi isə baxılması üçün icraya yönəldilib.

**AZƏRTAC**

# 9 ayda qeyri-neft-qaz məhsullarının ixracı 17 faiz artıb

## "İxrac İcmalı"nın oktyabr sayı bu sahə üzrə dinamik artımın davam etdiyini təsdiqləyir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın cari ilin oktyabr sayı təqdim olunub. İcmalda bildirilir ki, 2019-cu ilin yanvar-sentyabr ayları ərzində qeyri-neft sektoru üzrə 1 milyard 413 milyon dollarlıq ixrac reallaşdırılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac 206 milyon dollarlıq və ya 17 faiz artıb.

Hesabat dövründə Rusiyaya 465,6 milyon, Türkiyəyə 304 milyon, İsveçrəyə 125,4 milyon, Gürcüstana 123,2 milyon və İtaliyaya 34,4 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac olunub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft məhsullarının Rusiyaya ixracı 16, Türkiyəyə 10, İsveçrəyə 19, Gürcüstana 26 faiz və İtaliyaya 2,2 dəfə artıb.

Bu aylar ərzində ixrac edilən qeyri-neft məhsullarının sırasında pomidor daha çox (142,3 milyon dollarlıq) olub. Siyahıda qızıl (sikkə kəsilməsində istifadə edilməyən, digər emal olunmamış formalarda - 120,8 milyon dollarlıq) ikinci və qabığı təmizlənmiş meşə fındığı (87,9 milyon dollarlıq) üçüncü yerdə qərarlaşıb. Ümumiyyətlə, 9 ayda meyvə-tərəvəz ixracı 389,8 milyon, plastmasa və onlardan hazırlanan məmulatların ixracı 152 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 97,2 milyon, pambıq lifi ixracı 86,7 milyon, kimya sənayesi məhsullarının ixracı 76,6 milyon, elektrik enerjisinin ixracı 62,9 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 46,7 milyon, şəkər ixracı 23,2 milyon, pambıq ipliyi ixracı 22,5 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 20,3 milyon dollarlıq olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə alkoqollu və alkoqolsuz içkilərin ixracı 85, plastmasa və onlardan hazırlanan məmulatların ixracı 59, pambıq lifinin ixracı 38, kimya sənayesi məhsullarının ixracı 35, pambıq ipliyinin ixracı 32, meyvə-tərəvəzin ixracı 14, şəkər ixracı 12, elektrik enerjisinin ixracı 6 faiz artıb.

Sentyabra gəldikdə isə, həmin ay qeyri-neft sektoru üzrə ixracın dəyəri 136 milyon dollar olub. 2018-ci ilin sentyabr ayı ilə müqayisədə qeyri-neft sektoru üzrə ixracın dəyəri 22 milyon dollar və ya 19 faiz çoxalıb. Cari ilin sentyabr ayında qeyri neft-qaz məhsulları üzrə ən çox mal Rusiyaya (38,5 milyon dollarlıq), Türkiyəyə (25,4 milyon dollarlıq), İsveçrəyə (13,9 milyon dollarlıq), Gürcüstana (12,5 milyon dollarlıq) və Çinə (5,4 milyon dollarlıq) ixrac edilib. Sentyabrda qeyri-neft sektoru üzrə ixracda qızıl (sikkə kəsilməsində istifadə edilməyən, digər emal olunmamış formalarda - 13,1 milyon dollarlıq) birinci, qabığı təmizlənmiş meşə fındığı (11,7 milyon dollarlıq) ikinci, emal edilməmiş aşqarlanmamış alüminium (8,1 milyon dollarlıq) üçüncü olub.

"İxrac İcmalı"nda, həmçinin xidmət ixracına yer ayrılıb. Məlumat verilib ki, cari ilin yanvar-sentyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 24 ölkəsinə 30,2 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac olunub. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 88 faizini təşkil edib. Sentyabrda isə "Azərkosmos" ASC dünyanın 20 ölkəsinə 2,2 milyon dollar dəyərində xidmət göstərib. "Azərkosmos" ASC-nin 2019-cu ilin yanvar-sentyabr aylarında xidmət ixracı həyata keçirdiyi əsas ölkələr ABŞ, Fransa, Birləşmiş Krallıq, Malayziya, BƏƏ olub.

"İxrac İcmalı"nda 2019-cu ilin yanvar-sentyabr ayları ərzində Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə də məlumat verilib. Həmin məlumata görə, qeyd edilən dövrdə portala 436,4 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Keçən ilin müvafiq dövrü ilə müqayisədə ixrac sifarişləri 6,4 faiz artıb. Sentyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 37,1 milyon dollar təşkil edib. Bu ilin yanvar-sentyabr aylarında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (11,2 faiz), Türkiyə (5,8 faiz), Hindistan (5,7 faiz), ABŞ (5,6 faiz) və İngiltərə (5,1 faiz) qərarlaşıb.

Sentyabr ayında portala ən çox ixrac sifarişi tütün, toyuq əti və yumurtası, fındıq ləpəsi, pambıq yağı, şərab, nar, soğan, kosmetik vasitə, tibbi tənzif, mebel dəsti, boya, qənnadı məhsulu, mineral su, sarımsaq, meyvə konsentratı, təzə meyvə, mürəbbə, tikinti materialı, süd məhsulları, zəli və s. mallar üzrə daxil olub.

"İxrac İcmalı"nda, həmçinin göstərilib ki, oktyabr ayında "bir pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən qeyri-neft məhsulları üzrə ixracın dəyəri 18,1 milyon dollar olub. İlin əvvəlindən "Bir pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən yüzlərlə sahibkara ixracla bağlı müvafiq sertifikatlar verilib və bunun nəticəsində 118 milyon dollarlıq qeyri-neft məhsullarının ixracı həyata keçirilib.

***"Azərbaycan"***

## "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə server avadanlıqları və ehtiyat hissələrinin satın alınması

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumat əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə) və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı, uyğunluq sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).**

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **4 dekabr 2019-cu il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **12 dekabr 2019-cu il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **13 dekabr 2019-cu il saat 16:00-da** dövlət satınalmalarının vahid internet portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə "Azərsu" ASC-nin balansında olan regionlarda yerləşən tullantı sutəmizləyici qurğular üçün mal-materialların satın alınması

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumat əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 1 (bir) müqavilə) və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).**

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **9 dekabr 2019-cu il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **17 dekabr 2019-cu il saat 16:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **18 dekabr 2019-cu il saat 16:00-da** dövlət satınalmalarının vahid internet portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

AAY
DÖVLƏT AGENTLİYİ
Azərbaycan xalqını



9 Noyabr - Dövlət Bayrağı Günü
münasibətilə təbrik edir,
hamıya xoş güzəran,
yeni-yeni uğurlar arzulayır!
Yolunuz açıq olsun!

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Azərbaycan xalqını
Dövlət Bayrağı Günü
münasibətilə təbrik edir, birlik,
firavanlıq və işıqlı gələcək arzulayır!




# Bakının abadlığı və bakılıların rahatlığı

## Prezidentin paytaxt rəhbərliyindən tələbi budur



Bakının son iki onillik ərzində simasını dəyişməsi, yeni memarlıq nümunələrinin, göydələnlərin ucaldılması, tarixi binaların, yolların bərpası, park və xiyabanların salınması paytaxtı sürətlə dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişdir.

İllər, əsrlər ötüb keçəcək, zaman dəyişəcək, lakin Prezident İlham Əliyevin üçüncü minilliyin əvvəlində ölkəmizin paytaxtını dünyanın nadir və məşhur şəhərlərindən birinə çevirməsi danılmaz fakt kimi tarixə əbədi həkk olunacaq.

İndi Bakı hər birimizin qürur mənbəyidir. Kim Bakını görübsə, qürur hissi ilə bu şəhərin əsrarəngiz gözəlliklərini, mehriban, qonaqpərvər insanlarını rəğbətlə xatırlayır. Görməyənlər də sonsuz maraq və riqqətlə onunla görüşə can atırlar.

Prezident İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul edərkən ehtimal etmək olardı ki, söhbət təkcə şəhərin müasir simasında son illər əldə edilən nailiyyətlərdən gedəcək, dialoq uğurların təntənəsi üstündə qurulacaq. Yəni buna zəmin var idi. Düzdür, Prezident söhbətində abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət etdiyini, bir sıra layihələrin təşəbbüskarı olduğunu bildirsə də, daha çox problemlərdən danışıldı.

Məlumdur ki, paytaxtın ekoloji vəziyyətinin yaxşılaşdırılmasında havanı çirkləndirən mənbələrin aradan götürülməsi ciddi rol oynamışdır. Balaxanı zibilxanasının ləğv edilməsi və onun yerində müasir poliqonun qurulması, zibilin çeşidlənməsi, bərk tullantıların yandırılması artıq müasir texnologiyalarla aparılır. Bununla paytaxtda ən ağır ekoloji fəlakət mənbəyi ləğv edilmişdir. İkinci fəlakət mənbəyi Bibiheybət mədənlərindəki neftlə çirklənmiş yerlər, gölməçələr idi. Orada da yeni park, idman şəhərciyi, müasir idman hovuzu, digər ictimai obyektlər tikilib. Böyükşor gölünə onilliklər ərzində axıdılan kanalizasiya, lay suları, neftlə çirklənmiş sular bu əraziləri də ekoloji fəlakət zonasına çevirmişdi. Bu gün bataqlıq kimi tanınan yerdə olimpiya stadionu tikilmiş, ağaclar əkilmişdir. Bunlardan əlavə, keçmiş Sovet küçəsində də 20 hektarlıq əsrarəngiz park salınmış və s. işlər görülmüşdür.

Bakı Şəhər İcra Hakimiyyətinin balansında 11 min yaşayış binası var. Həyətləri olan binaların sayı isə 6331-dir. 2018-2019-cu illərdə 273 nümunəvi məhəllə yaradılmış, onlarca binanın fasadı, dam örtüyü, bloku təmir olunmuş, su təchizatı sistemi yenilənmiş və bütün yaş kateqoriyaları üçün istirahət etmək və idmanla məşğul olmaq üçün şərait yaradılmışdır. Bütün bunlara baxmayaraq, Eldar Əzizovun sözlərinə görə, ilin axırınadək daha 15 yeni nümunəvi məhəllə istifadəyə veriləcəkdir: “Bizim hesablamalarımıza görə, yaxın illərdə hələ 743 bu cür layihə icra etmək mümkündür. Bu proses davam edir. Bu gün biz bir daha Heydər Əliyev Fondunun rəhbərliyinə və ilk növbədə Leyla xanım Əliyevaya minnətdarlığımızı bildiririk”.

Dövlət başçısını rəqəmlər qane etsə də, müzakirəyə konstruktiv və bir qədər də tənqidi yanaşdı, məsələnin həddən artıq vacib olduğunu qeyd etdi: “Biz bilirik ki, bir çox binalarda, bloklarda vəziyyət ürəkaçan deyil, lift təsərrüfatı köhnəlib. Evlərarası həyətlər bəzi hallarda zəbt olunur və ictimai istifadə üçün yerlər yoxa çıxır. Ona görə nümunəvi həyətlərin qurulması çox böyük məna daşıyır”.

Ölkənin paytaxtı qazandığı adı uca tutmalı, yalnız qonaqları heyrətləndirməli deyil, həm də şəhər sakinləri üçün rahat, işıqlı və təhlükəsiz olmalıdır. O cümlədən lift təsərrüfatı bir neçə il əvvəl Prezidentin sərəncamı ilə ayrılan vəsait hesabına bir çox binada yenilənsə də, bu proses tam başa çatmalıdır.

Nümunəvi həyətlərin yaradılması ilə bərabər, onların qorunması da vacibdir. Bu gün hər bir sakin borcludur ki, dövlətin onların rahatlığı və şəhərin gözəlliyi üçün gördüyü böyük işləri göz bəbəyi kimi qorusun, hər bir həyəti nümunəvi vəziyyətdə saxlasın.

Ümumiyyətlə, dövlət başçısı belə hesab edir ki, şəhərin hər bir yeri abad olmalı və vətəndaşları narahat edən bütün problemlər aradan qaldırılmalıdır. İctimai nəzarət daha da gücləndirilməli, şəhərsalma qaydalarına tam əməl edilməlidir. Əvvəlki dövrlərdəki kimi şəhərsalma qaydalarını pozmaq, mövcud binaların düz önündə yeni çoxmərtəbəli binalar tikmək yolverilməzdir.

Görüşdə toxunulan ən vacib mövzulardan biri də rayon icra hakimiyyətləri tərəfindən vətəndaşlara diqqətin yüksək səviyyəyə çatdırılması ilə bağlı oldu: “Bəzi hallarda vətəndaşlar incidilir, onların problemlərinə reaksiya verilmir. Bəzi hallarda vətəndaşlardan qanunsuz olaraq müəyyən vəsait tələb edilir, rüşvətxorluq halları baş verir. Belə siqnallar bizə çatır və rayon icra hakimiyyətləri nəticə çıxarmalıdırlar. Xoşagəlməz hallara yol verilməməlidir, vətəndaşlara maksimum diqqət göstərilməlidir, rayon icra hakimiyyətlərinin nümayəndələri kabinetdə oturub kağızlara baxmaq yox, bütün rayonlarda vətəndaşlarla görüşməlidirlər”.

Dövlət başçısı bu görüşdən ölkənin bütün rayonlarının icra başçılarına yenidən ismarıc göndərdi: “Bakı Şəhər İcra Hakimiyyəti və bütün rayon icra hakimiyyətləri vətəndaşlara böyük diqqətlə yanaşmalıdırlar”.

Bakı hər birimizin fəxridir, qürur mənbəyimizdir. Onun hər daşında, hər küçəsində bir tarix yaşayır. Bakıya qonaq gələn istənilən əcnəbi burada ruhuna, qəlbinə yaxın mənzərələr tapır, Şərq və Qərb memarlığının sintezindən zövq alır.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# DSX-nin rəisi və Hərbi prokuror “Qazax” əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə səfər ediblər



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev və Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev DSX-nin Sərhəd Qoşunlarının Ermənistan ilə dövlət sərhədinin mühafizə və müdafiəsini həyata keçirən “Qazax” əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə səfər ediblər.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində əlahiddə sərhəd diviziyasının struktur qurumlarının xidməti-döyüş fəaliyyəti yoxlanılıb, sərhəd döyüş məntəqələrində şəxsi heyətlə görüşülüb, xidməti və yaşayış şəraitinə baxış keçirilib.

Elçin Quliyev və Xanlar Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti, dövlət sərhədində zəruri sərhəd mühafizə və müdafiə infrastrukturunun yaradılması məqsədilə görülən işlərlə tanış olublar. Hərbi hissə və bölmələrin döyüş hazırlığının yüksəldilməsi, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, hərbi qulluqçular arasında hərbi intizamın möhkəmləndirilməsi, hüquqi maarifləndirmənin gücləndirilməsi istiqamətində zəruri tapşırıqlar verilib.

# Kiçik və orta sahibkarlar üçün növbəti onlayn maarifləndirmə tədbiri keçirilib

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) mikro, kiçik və orta sahibkarlıq subyektləri (KOB-lar) üçün onlayn maarifləndirmə tədbirlərini davam etdirir.

KOBİA-nın təşkilatçılığı ilə növbəti maarifləndirmə tədbiri Kənd Təsərrüfatı Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin, Azərbaycan Dövlət İqtisad Universitetinın dəstəyi ilə aqrar sektorda fəaliyyət göstərən KOB-lar və özünüməşğulluq proqramına qoşulmuş fermerlər üçün təşkil edilib.

Onlayn tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri aqrar sahəyə göstərilən dövlət dəstəyi tədbirləri, o cümlədən kənd təsərrüfatı texnikasının və damazlıq heyvanların lizinq üsulu ilə verilməsi, mineral gübrə və pestisidlərin güzəştli satışı, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkili, güzəştli kreditlərin verilməsi, eləcə də 2020-ci ilin 1 yanvar tarixindən etibarən tətbiq olunacaq yeni subsidiya qaydaları barədə sahibkar və fermerləri məlumatlandırıblar. sonda sahibkarların və özünüməşğulluq proqramına qoşulmuş fermerlərin sualları cavablandırılıb.

AZPETROL

"Azpetrol" şirkətinin rəhbərliyi və kollektivi Azərbaycan xalqını 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə təbrik edir.

Şirkət xalqımıza sülh, əmin-amanlıq, birlik, firavan həyat və xoş gələcək arzulayır!



Bayramınız mübarək!




# Abadlıq və quruculuq işləri geniş vüsət alıb

Ölkəmizin sürətli inkişafı bölgələrimizdə də geniş vüsət alıb. Bu inkişaf respublikamızın ikinci böyük şəhəri Gəncədə də özünü göstərir. Prezident İlham Əliyevin qayğısından güc alıb simasını dəyişən Gəncə gündən-günə gözəlləşir, yeni uğurlara imza atır. Məqsədyönlü şəkildə həyata keçirilən tədbirlər şəhərin sosial-iqtisadi həyatının bütün sahələrini əhatə edir.







İndi Gəncənin hansı ərazisinə getsən abadlıq və quruculuq işlərinin şahidi olarsan. Şəhərdəki 5 qəsəbə, 30-dan çox prospekt və küçədə istifadəyə yararsız kommunal xətlər təzələnir, asfalt örtüklər salınır, piyada yolları, səkilər yenidən qurulur.

IV Dövlət Proqramına uyğun olaraq, hazırda 80 yaşayış binasının inşası, üç, dörd və beşmərtəbəli 50 binanın dam örtüyünün dəyişdirilməsi istiqamətində tədbirlər görülür.

Gəncənin su və kanalizasiya sistemləri də xeyli vaxtdır ki, yenidən qurulur. Dədə Qorqud küçəsində asfalt örtüyünün yenilənməsi başa çatdırılmış, Nəriman Nərimanov prospektindən Gülüstan yaşayış massivinə gedən hissədə hərəkət üçün yaranan məhdudiyyətlər aradan qaldırılmışdır.

Nizami Gəncəvi, Şah İsmayıl Xətai prospektlərində, Eminbəyli, Təbriz, Əhməd Cəmil və digər küçələrdə yolların təmiri davam etdirilir. Ümumiyyətlə, qısa vaxt ərzində şəhərdə 12 min 411 kvadratmetr avtomobil yolu, 3 min 400 kvadratmetrdən çox səki asfaltlanmışdır. Nizami Gəncəvi prospekti ilə Kimyaçılar küçəsinin kəsişməsindəki yataqxanalarda yaşayan sakinlər üçün tikilən 249 mənzilli binada son tamamlama işləri görülür. Dövlət başçısının sərəncamı ilə Gəncəçayın üzərindəki 5 körpünün yenidən qurulması və bərpası işlərinə başlanılmışdır.

Çoxmərtəbəli binalarda yaşayan sakinlərin lift problemi də həll edilir. Şəhərin müxtəlif ərazilərindəki belə binalarda 75 yeni lift quraşdırılmışdır. Hazırda bu iş davam etdirilir.

Almaniya İnkişaf Bankının (KFW) krediti hesabına "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi çərçivəsində Gəncə şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması mərhələli şəkildə davam etdirilir. Layihə çərçivəsində Gəncə şəhərində 855 kilometr uzunluğunda içməli su şəbəkəsinin tikintisi nəzərdə tutulmuşdur. Artıq 304,3 kilometr içməli su şəbəkəsi inşa edilmiş, 144 çoxmənzilli yaşayış binasının daxili şəbəkəsi yenidən qurulmuş, 15 min 787 su sayğacı quraşdırılmışdır. Eyni zamanda, layihəyə görə 813 kilometr inşası nəzərdə tutulan kanalizasiya şəbəkəsinin 175 kilometrlik hissəsinin tikintisi aparılmışdır. Bununla da 3 min 773-dən çox ev kanalizasiya xəttinə, 3 min 256 ev su şəbəkəsinə qoşulmuşdur.

Hazırda şəhərdə infrastruktur layihələrinin icrası davam edir. Müsbət hal odur ki, qazıntı işləri zamanı baş verən dağıntılar yubadılmadan aradan qaldırılır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

*Yeni nəşrlər*

# Azərbaycan ədəbi dili tarixinə daha bir töhfə

Dilimizin tarixi keçmişini yaşadan söz ustadlarının miras qoyub getdiyi ədəbi-bədii nümunələr yetərincədir. Bu nümunələrlə dilimizin fonetik, leksik, həmçinin qrammatik sistemi barədə zəngin bilgilər alır, onun müəyyənləşməsi, formalaşması, həm də keçdiyi tarixi inkişaf yollarını öyrənirik.




Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Türkologiya kafedrasının dosenti Qızılgül Abdullayevanın da yeni çapdan buraxılan "XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi" və "XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik norma demokratizmi" monoqrafiyaları bu baxımdan elmə sanballı töhfə hesab edilir.

Hər iki monoqrafiyada dildaxili yeni differensasiya, sabitləşmə, demokratikləşmə proseslərinin başlanğıc mərhələsi olan XVII əsr Azərbaycan ədəbi dil normalarının tarixi təkamülü araşdırılır. "Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi" adlı monoqrafiyada XVII əsr Azərbaycan ədəbi dilinin vokal və konsonant sisteminin, eləcə də leksik yarusların məkanında yer alan hadisə və qanunlara yeni rakursdan baxılır.

Həmin dövrü təmsil edən dil materiallarını izləməklə tarixi orfoqrafiyamızın, imlamızın, eləcə də dilimizin fonetik prinsipləri üzə çıxarılır. Burada müəyyənləşdirilir ki, xəlqiləşdirməni mayalandıran canlı danışıq dilinin təsiri nəticəsində on yeddinci yüzillikdə klassik kitab dili öz ənənəvi çərçivəsindən çıxaraq, dili xəlqiləşdirməyə doğru istiqamətləndirilir. Elə bu yönləmə onun milliləşməsinə rəvac verir.

Bununla yeni dildaxili proseslər leksik sistemdə də demokratikləşməyə öz təsirini göstərir. Belə ki, bu dövr ədəbi dilimizdə qeyri-ümumişlək ərəbizm və farsizmlərin dildən çıxma axını güclənir. Türkizmlər, eləcə də türkləşmiş ərəb və fars sözləri isə bir tərəfdən kəmiyyət çoxluğuna və intensivliyə imza atır, digər tərəfdən isə dildə oturaqlığını, yəni "yerini bərkidir". Nəticədə XVII əsr Azərbaycan ədəbi dilinin lüğət tərkibi millilik baxımından yenidən təşkil olunur.

Elmi redaktoru mərhum akademik, filologiya üzrə elmlər doktoru, professor Tofiq Hacıyev, rəyçiləri akademik Nizami Cəfərov, Filologiya üzrə elmlər doktorları, professor Elbrus Əzizov, Məmmədəli Novruzov, Məhərrəm Məmmədli olan hər iki monoqrafiya ali məktəblərin filologiya fakültəsinin müəllimləri, magistrantları, tələbələri, ümumilikdə dil tarixçiləri üçün faydalı olacağı annotasiyada xüsusi qeyd edilir.

"XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik norma demokratizmi" monoqrafiyasında isə XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik normasında gedən demokratikləşmə üzə çıxarılır. İzahetmələrdə belə demokratikləşmənin getdiyi qeydə alınır. Burada həmçinin qrammatik sistemdə reallıq tapan "oğuz" və "cağatay" dil faktları paralelliyində oğuz elementlərinin aparıcılığı və sabitliyi dəqiləşdirilməklə təsdiqlənir. Müasir Azərbaycan ədəbi dilinəqədərki yolu qət edə bilməyənlər üzə çıxarılır və onların normativləşməməsində ümumxalq dilinin rolu diqqətə çatdırılır, cümlə tirajları ekvivalentlik və fərqlənmələr fonunda təqdim olunur.

Tədqiqat tarixi-müqayisəli araşdırma yolu ilə aparıldığından monoqrafiyalarda inteqrallıq və differensiallıq müəyyənliyi ilə üzə çıxarılır. Məhz dilimizin bu tarixi mərhələsində nağıl, təhkiyə dili əruza yol açır. Monoqrafiyalardan alınan təəssürata görə, zəngin və faktiki dil materiallarına söykənən müəllif tərəfindən XVII əsr həm də "xəlqiləşmənin yenidən təşkili" adlı dildaxili yeni prosesin getdiyi bir zaman kəsiyi, ümumxalq dilinin funksional imkanlarının genişləndiyi tarixi mərhələ kimi səciyyələndirilir.

Monoqrafiyaların zənginliyini təsdiq edən faktorlar burada az deyil və təbii ki, onları sadalamağa ehtiyac duyulmur. Lakin elə məqamlar var ki, onların üstündən ötüb keçmək insafsızlıq olardı. Monoqrafiyalarda izahlı lüğət (çünki ərəb-fars mənşəli terminlərdən yetərincə istifadə olunur) sadə oxucunu belə, dil mütəxəssisi olmasa da, özünə cəlb edir. Nümunələrin izahı elmi və ədəbi dilin imkanlarına əsaslanır.

Ümumiyyətlə, XVII əsr Azərbaycan ədəbi dil normalarının bütün dil yarusları üzrə ilk dəfə olaraq tədqiqata cəlb olunması dilçilik elmi üçün bir yenilik hesab edilir. Nəticə olaraq adıçəkilən hər iki monoqrafiya bu zaman kəsiyindəki boşluğu doldurur.

Bütün hallarda XVII əsr ədəbi dil norması onun şifahi və yazılı qolları arasında yaxınlaşmanı təmin edərək uçurum yaranmasının qarşısını alır. Beləliklə, normallaşmalardakı bu yeni inkişaf həddi XVII əsr Azərbaycan ədəbi dilini canlı danışıq dilinə doğru istiqamətləndirir. Bu, həmin əsrin sonunadək davam edir. Ədəbi dilin bu axarda zirvələşməsi isə daha çox xalq şeiri janrlarının əhatə dairəsinin genişlənməsi sayəsində baş verir.

Bu baxımdan müəllifin hər iki monoqrafiyası dil elminin inkişafına bir töhfədir.

Elm xadimlərinin, mütəxəssislərin, filoloq alimlərin mükəmməl hesab etdikləri monoqrafiyaların müəllifi Qızılgül Abdullayeva qarşısına qoyduğu məqsədə çatmaq üçün əsaslı araşdırmalar aparıb.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin tender komissiyası bildirir ki, 282100. "Sair xərclər" xərc maddəsi üzrə malların satın alınması məqsədilə 18 oktyabr 2019-cu il tarixində elektron qaydada keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən "Simplex" QSC qalib elan edilmiş və həmin təşkilatla 3373117,12 manat məbləğində müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin tender komissiyası bildirir ki, Tələbatın formalaşdırılması və toplanılması üçün proqram təminatının satın alınması məqsədilə 29 oktyabr 2019-cu il tarixində elektron qaydada keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən "Smart Solyuşns" MMC qalib elan edilmiş və həmin təşkilatla ƏDV ilə birlikdə 29 452,52 (iyirmi doqquz min dörd yüz əlli iki manat əlli iki qəpik) manat məbləğində satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

# "Azercell"dən "Samsung" smartfonları üçün xüsusi təklif

## "Azercell Telekom" MMC yeni "Samsung" smartfonları" kampaniyası çərçivəsində abunəçilərə 12 aylıq 1GB internet paketi hədiyyə edir

Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell Telekom" MMC ən son model smartfonları daha da əlçatan etmək məqsədilə, abunəçilərə xüsusi şərtlər ilə yeni kampaniya təqdim edir. Ən sərfəli təkliflərlə seçilməyi hədəfləyən şirkət müştərilərin qarşısına "Azercell"in innovativ xidmətləri və "Samsung" brendinin etibarlılığını özündə cəmləşdirən yeni "Samsung smartfonları" kampaniyası ilə çıxır. 07.11.2019-15.01.2020-cu il tarixləri ərzində "Azercell"in eksklüziv mağazaları və ya rəsmi diler dükanlarında A seriyalı Samsung smartfonu və yeni "Azercell" nömrəsi əldə etməklə, hər bir abunəçi 12 ay boyunca 1GB internet paketindən pulsuz yararlanmaq üçün əvəzolunmaz fürsət qazanacaq.

Bu yeni ili yeni "Samsung" smartfonunuz ilə qarşılayın! Artıq ünsiyyətiniz daha dinamik, xatirələriniz daha rəngarəng olacaq!

*"Azərbaycan"*

# Atəşkəs rejimi 21 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən düşmən də ordumuzun mövqelərinə atəş açılıb.


# 9 NOYABR DÖVLƏT BAYRAĞI GÜNÜ



*Azərbaycan Respublikasının bayrağının hər zaman yüksəklərdə dalğalanması naminə dost və qardaş Azərbaycan xalqına böyük uğurlar arzulayırıq!*

TEKFEN İNŞAAT



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


# BİLDİRİŞ

***Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 2019-cu il üçün xərclər smetasında "Cari təmir" (221320) maddəsinə ayrılmış vəsaitlər hesabına kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 14.11.2019-cu il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

**Əlaqələndirici şəxs: Anar Məmmədov. Ünvan: Bakı şəhəri, S.Əsgərova küç., 85 Telefon: (012) 594-17-26**

*Tender komissiyası*

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

## DOST Agentliyi publik hüquqi şəxs DOST İş Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyəti avadanlığın alınması təsnifatı üzrə malların satın alınması üçün *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə aparılır.

**LOT-1. Avadanlıq təsnifatı üzrə malların satın alınması (225412 - Avadanlığın alınması)**

Tender iştirakçıları dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər müəyyən edilmiş məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edərək öz tender təkliflərini Portal üzərindən təqdim edə bilərlər.

**İştirak haqqı:**
**LOT 1- 200 manat**
**Təşkilat: DOST İş Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1305835261)**
**Hesablaşma hesabı: AZ90AIIB40060019440425072208**
**Bank: Kapital Bank ASC Sahil filialı**
**Kodu: 201218**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT bik: AIIBAZ2X**
**VÖEN (bank): 9900003611**
**Ödənişlə əlaqədar əlavə informasiya - Tenderdə iştirak haqqı**
**İştirak haqqı heç bir halda qaytarılmır.**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat.*

Qeyd olunan sənədlər Azərbaycan dilində, düzgün şəkildə, vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərənləri (podratçıları) satınalan təşkilat iddiaçı kimi qeydə alacaqdır.

Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən əsas şərtlər topIusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

Tender təklifinin qiymətinə bütün vergi, nəqliyyat və sığorta xərcləri daxil edilərək manatla hesablanmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) və iş qrafikini **02 dekabr 2019-cu il saat 18:00-dək,** tender təklifi və bank təminatını **10 dekabr 2019-cu il saat 18:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunmuş təkliflər Portal vasitəsilə qəbul olunmayacaqdır.

İddiaçıların təklifləri **11 dekabr 2019-cu il saat 11:00-da** Portal üzərindən açılacaqdır.

**Əlaqələndirici şəxs: Məhəmməd Seyidəliyev**
**Telefon: 497-41-19; 051 207-59-19**
**E-mail: mahammad.seyidaliyev@sosial.gov.az**
**Ünvan: AZ1005, Bakı şəhəri, Z.Tağıyev küçəsi, 13**

*Tender komissiyası*

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

## DOST Agentliyi publik hüquqi şəxs DOST İş Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyəti kompüter texnikası və avadanlıqların satın alınması üzrə *açıq tender elan edir*

Tender 1(bir) LOT üzrə aparılır.

**LOT-1. Kompüter texnikası və avadanlıqların satın alınması (Digər maşın və avadanlıqlar)**

Tender iştirakçıları dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər müəyyən edilmiş məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edərək öz tender təkliflərini Portal üzərindən təqdim edə bilərlər.

**İştirak haqqı:**
**LOT 1 - 300 manat**
**Təşkilat: DOST İş Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1305835261)**
**Hesablaşma hesabı: AZ90AIIB40060019440425072208**
**Bank: Kapital Bank ASC Sahil filialı**
**Kodu: 201218**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT bik: AIIBAZ2X**
**VÖEN (bank): 9900003611**
**Ödənişlə əlaqədar əlavə informasiya - Tenderdə iştirak haqqı**
**İştirak haqqı heç bir halda qaytarılmır.**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat.*

Qeyd olunan sənədlər Azərbaycan dilində, düzgün şəkildə, vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərənləri (podratçıları) satınalan təşkilat iddiaçı kimi qeydə alacaqdır.

Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən əsas şərtlər topIusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

Tender təklifinin qiymətinə bütün vergi, nəqliyyat və sığorta xərcləri daxil edilərək manatla hesablanmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) və iş qrafikini **28 noyabr 2019-cu il saat 18:00-dək,** tender təklifi və bank təminatını **09 dekabr 2019-cu il saat 12:30-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunmuş təkliflər Portal vasitəsilə qəbul olunmayacaqdır.

İddiaçıların təklifləri **09 dekabr 2019-cu il saat 15:00-da** Portal üzərindən açılacaqdır.

**Əlaqələndirici şəxs: Məhəmməd Seyidəliyev**
**Telefon: 497-41-19; 051 207-59-19**
**E-mail: mahammad.seyidaliyev@sosial.gov.az**
**Ünvan: Bakı şəhəri, AZ1005, Bakı şəhəri, Z.Tağıyev küçəsi, 13**

*Tender komissiyası*

# "Bakı Metropoliteni" QSC

## qatarların təmir proseslərinin qeydiyyatının avtomatlaşdırılması layihəsinin hazırlanması xidmətinin satın alınması üzrə *kotirovka sorğusu elan edir*

"Bakı Metropoliteni" QSC-nin qatarlarının təmir proseslərinin qeydiyyatının avtomatlaşdırılması layihəsinin hazırlanması xidmətinin satın alınması.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 14.11.2019-cu il saat 17:00-dək qəbul olunur.

Təkliflər 15.11.2019-cu il saat 15:00-da açılacaqdır.

**Ünvan: Bakı ş., M.Rəfili, 16; tel.: (012) 490-00-91 Əlaqələndirici şəxs: Rauf Yusifov**

*Tender komissiyası*

# "Bakı Metropoliteni" QSC

## vaqonların pasportlarının rəqəmsallaşdırılması xidmətinin satın alınması üzrə *kotirovka sorğusu elan edir*

"Bakı Metropoliteni" QSC-nin vaqonların pasportlarının rəqəmsallaşdırılması xidmətinin satın alınması.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 14.11.2019-cu il saat 17:00-dək qəbul olunur.

Təkliflər 15.11.2019-cu il saat 15:30-da açılacaqdır.

**Ünvan: Bakı ş., M.Rəfili, 16; tel.: (012) 490-00-91**
**Əlaqələndirici şəxs: Rauf Yusifov**

*Tender komissiyası*

# Avropanın ən təhlükəli və təhlükəsiz ölkələrinin siyahısı tərtib olunub

Avropanın Statistika Agentliyi Avropanın ən təhlükəli və təhlükəsiz ölkələrinin siyahısını tərtib edib.

AZƏRTAC xəbər verir ki, Agentliyin məlumatına əsasən, Avropanın ən təhlükəli ölkəsi Belçikadır. Belə ki, 2017-ci ildə ölkədə 100 min nəfərə qarşı törədilən cinayətlərin sayına görə göstərici (167) bütün üzv ölkələrindən çoxdur. İkinci yerdə Fransa (150) və İspaniya (144) yerləşir. Böyük Britaniya (132) və Portuqaliya (115 cinayət) da bu siyahıda yer alır. Aİ-də ən təhlükəsiz ölkələr isə Slovakiya və Macarıstan (9), Sloveniya (12), Kipr (14), Estoniya və Çexiya (15), həmçinin Rumıniyadır (16 cinayət). Qeyd olunur ki, 2011-ci ildən 2017-ci ilə kimi Avropa İttifaqında qarət hallarının sayı 24 faiz azalıb və 522 min hadisədən 396 min hadisəyə enib. Bununla yanaşı, təkcə 2017-ci ildə Avropadakı hücumların sayı 1,1 milyonu keçib. Ən çox qəsdən öldürmə halları Latviya, Litva, Estoniya və Maltada, ən az isə Lüksemburq, Çexiya, İtaliya və Avstriyada qeydə alınıb.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Ziyad Səmədzadə, Ağalar Vəliyev, Xanhüseyn Kazımlı, Cavid Qurbanov, Rüfət Quliyev, Əli Məsimli, İlham Əliyev, Əsabil Qasımov, Tahir Mirkişili, Vahid Əhmədov, Mahir Abbaszadə, Aydın Hüseynov, Elçin Quliyev, Mirzəcan Xəlilov, İmamverdi İsmayılov, Şəmsəddin Hacıyev və İqbal Məmmədov Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlıya anası

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini Eynulla Mədətli Aqiyə Naxçıvanlıya və Hüseyn Mövsümova əzizləri

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlıya anası

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Aqiyə Naxçıvanlıya anası

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlıya anası

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlıya anası

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8906
Sifariş 3726
Qiyməti 40 qəpik